QARABAĞ AZƏRBAYCANDIR!

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 011 (6211) 20 yanvar 2021-ci il 2020-ci il. Qiyməti 40 qəpik "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.


## İlham Əliyev: "Böyük qayıdış proqramı hazırlanır"



Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edib

Bax 2

## 20 Yanvar - xalqın azadlıq yolu




*Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 31 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədiblər. Bu tarix Azərbaycanın...*

Bax 6

## YAP İdarə Heyətinin iclası keçirilib



Bax 4

Yanvarın 19-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilmişdir. İclasda YAP İdarə Heyətinin 2020-ci ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin və Qadınlar Şurasının fəaliyyəti haqqında hesabat, partiyanın 2020-ci il üzrə maliyyə hesabatı...

## Bu il 26 min şəxs işlə təmin ediləcək



## Vladimir Kreydenko: Yanvar hadisələri Azərbaycanda sovet hakimiyyətinin süqutunun başlanğıcı oldu



Bu günlərdə biz Azərbaycan xalqının tarixində 31 il bundan əvvəl Bakıda faciəli hadisələri xatırlayırıq. Həmin gün sovet ordusu kommunist rejimini qorumaq məqsədilə dinc dövrdə sovet şəhərinə hücum etmişdi. Əfsuslar olsun ki, həmin cinayətkar hərəkətlər nəticəsində 140 nəfərdən çox dinc sakin...

Bax 3

## Sergey Lavrov: "Ermənistan rəsmilərinin açıqlamaları gərginlik yaradır"



Bax 4

Sergey Lavrov Qarabağla bağlı emosional açıqlamaların əks nəticə verdiyi qənaətindədir. SİA xəbər verir ki, nazir bu qənaəti barədə mətbuat konfransında söyləyib. Eyni zamanda, rusiyalı nazir qeyd edib ki, Ermənistan rəsmilərinin bəzi açıqlamaları şübhəsiz ki, gərginliyə səbəb olur. "Düşünürəm ki, bunun qarşısını almaq daha yaxşı olardı. 44 günlük müharibə başlamazdan əvvəl Qarabağdan səsləndirilən...

## Ermənistanda müharibədən sonrakı böhran dərinləşir



## Qələbəni bizə yaşadanları yaşadaq



Bax 7

## Dövlətimiz və millətimiz 20 Yanvar faciəsinin qurbanlarının xatirəsini daim uca tutur



Bax 11

## Ohanyan: Şuşada itkilərimiz çox oldu



Bax 13

# İlham Əliyev: "Böyük qayıdış proqramı hazırlanır"

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edib*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev qeyd edib ki, vaxtilə Qarabağın çiçəklənən, on minlərlə insanın yaşadığı Ağdam və Füzuli şəhərləri tamamilə dağıdılıb. Füzulidə bircə salamat bina yoxdur:**



-Hörmətli cənab Baş katib.
Hörmətli qonaqlar.

Sizi Azərbaycanda salamlayıram, gəlişinizə şadam. Mən bilirəm ki, siz Ağdamda və Füzulidə olmusunuz, işğalçı qüvvələrin bizim şəhərləri viran qoyduğunu özünüz görmüsünüz. Vaxtilə Qarabağın çiçəklənən, on minlərlə insanın yaşadığı Ağdam və Füzuli şəhərləri tamamilə dağıdılıb. Füzulidə bircə salamat bina yoxdur. Ağdamda da bütün binalar söküləb, yalnız qismən dağıdılmış məscid qalıb. O da, mənim dediyim kimi, sonradan məlum olub ki, yalnız Azərbaycan Ordusunun bu istiqamətdə hücum edəcəyi halda baş verə biləcək artilleriya zərbələrinin oriyentiri kimi ərazidə səmtləşdirmək üçün qalıb. Təsadüfi deyil ki, xarici jurnalistlər Ağdamı "Qafqazın Xirosiması" adlandırıblar. Fikrimcə, eyni sözləri Füzuli şəhəri, həmçinin işğal altında olmuş başqa şəhərlər haqqında da demək olar. Zəngilan da, Cəbrayıl da, Qubadlı da praktiki olaraq tamamilə dağıdılıb. Təkcə şəhərlər yox, kəndlər də. Siz Füzuliyə, Ağdama gedəndə yol boyunca yəqin ki, tamamilə dağıdılmış kəndləri görmüsünüz. Bütün bu dağıntılar Birinci Qarabağ müharibəsi başa çatandan sonra törədilib, məhz bu ərazilərdə Azərbaycanın mədəni irsinin izlərini məhv etmək üçün. Həm də ondan ötrü ki, azərbaycanlıların bu ərazilərə qayıtmalarına heç vaxt imkan verməmək üçün, eləcə də sırf oğurluq, qarət üçün. Vandallar və oğrular pəncərə çərçivələrini, qapıları, dam örtüklərini, aparılması mümkün olan nə varsa hamısını söküb aparıblar. Hər şeyin dağıdılmadığı ərazilərdə süni məskunlaşdırma siyasəti aparılırdı, bu, Cenevrə konvensiyalarının ən kobud şəkildə pozulmasıdır və hərbi cinayətdir. Özü də, işğalın ilk illərində Ermənistanın əvvəlki hakimiyyəti bu faktları gizlədirdisə, indiki hakimiyyət bununla fəxr edir, internetdə və özünün kütləvi informasiya vasitələrində Yaxın Şərqin digər dövlətlərinin erməni millətindən olan vətəndaşlarının buraya gəlməsi, Şuşada və digər şəhərlərdə məskunlaşması barədə videoçarxları nümayişkaranə şəkildə dərc edir, bununla da həm beynəlxalq hüquq normalarına, həm də insani əxlaq normalarına tam etinasızlıq göstərirdi.

Bir də, hansı əxlaqdan danışmaq olar ki, indi bütün dünya işğalçıların törətdiyi dağıntıları görür. Bəşər tarixində dünyada müharibələr və dağıntılar çox olub, lakin mənim fikrimcə, XX əsrdə belə barbarlıq, vandalizm və dağıntılar, şəhərlərin və kəndlərin qəsdən məhv edilməsi görünməyib.

İşğaldan azad edilmiş digər ərazilərə gəldikdə isə, məsələn, Kəlbəcər, Laçın rayonlarında həm Ermənistan vətəndaşlarının, həm də əsasən diaspordan olan ermənilərin süni şəkildə məskunlaşdırılması aparılıb. Lakin noyabrın 10-da imzalanmış Bəyanata müvafiq olaraq, işğalçılar həmin əraziləri tərk edəndə, onlara təxminən 20 gün vaxt verilmişdi, bu müddətdə onlar özlərinin tikmədiyi, qanunsuz olaraq soxulduqları evləri yandırır, meşələri qırır, bütün infrastrukturu məhv edirdilər. Laçın və Kəlbəcər rayonlarında 10-dan çox su elektrik stansiyası vardı, onlar hamısı dağıdılıb, yəni bu, barbarlıqdır. Bütün dünyanın gözü qarşısında buna, sadəcə, başqa ad vermək mümkün deyil. Azərbaycan işğal olunmuş ərazilərə qayıdandan sonra, beynəlxalq təşkilatların, səfirliklərin nümayəndələri, jurnalistlər oraya səfər edir, hər şeyi öz gözləri ilə görürlər. Bu, misli görünməmiş vandallıqdır. Elə bil bu ərazilərdən vəhşi qəbilə keçib.

## Azərbaycan Prezidenti: Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır

Şuşa şəhərinə gəldikdə isə onun indiki vəziyyətinə heç kim laqeyd qala bilməz, çünki bu nadir və bənzərsiz şəhər Qafqazın incisidir. Fikrimcə, nəinki bizim regionda, dünyada onun bənzəri yoxdur. Şəhər tamamilə boşalıb, məscidlər dağıdılıb, tarix və mədəniyyət abidələri, Vaqifin məqbərəsi dağıdılıb, məzar daşı sındırılıb, Vaqifin barelyefi qırılıb, büstü məhv edilib. Natəvanın sarayı dağıdılıb, Bülbülün evi praktiki olaraq yarıdağıdılmış vəziyyətdədir, Üzeyir Hacıbəylinin evi isə artıq yoxdur, onun yalnız divarları qalıb. Bu, barbarlıqdır, bu, mədəni soyqırımıdır və buna heç cür haqq qazandırmaq olmaz. Müharibə qurtarıb, Azərbaycan qələbə qazanıb. Lakin biz bunu heç vaxt unutmayacağıq və heç vaxt unutmamalıyıq. Buna görə, mənim göstərişimə əsasən bütün şəhərlərimiz, kəndlərimiz bərpa ediləndə biz yəqin ki, hər şəhərdə bir məhəlləni, ola bilsin, böyük bir ərazini işğalçılardan sonra qalmış vəziyyətdə saxlayacağıq ki, Azərbaycan xalqı bunu heç vaxt unutmasın, gələcək nəsillər yadda saxlasınlar ki, biz öz torpağımızı qorumalıyıq və yalnız öz gücümüzə güvənməliyik. Əlbəttə, biz işğal edilmiş ərazilərdə dağıdılanların hamısını bərpa edəcəyik, bərpa prosesi başlanıb. Fikrimcə, bizim atdığımız ilk addımların nəticələri lap yaxın vaxtlarda görünəcək. Böyük qayıdış proqramı hazırlanır. Zənnimcə, lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik.

Hörmətli Baş katib, sizə, həmçinin TÜRKSOY-un rəhbərinə müharibə dövründə və müharibədən sonra bizi dəstəklədiyinizə görə təşəkkürümü bildirmək istərdim. Türk Şurasının Baş katibi müharibə dövründə dəfələrlə bəyanatlarla çıxış edib, müharibənin lap əvvəlində siz Azərbaycanı dəstəkləyən, ölkəmizin ərazi bütövlüyünü və suverenliyini, onun sərhədlərinin toxunulmazlığını dəstəkləyən bəyanat vermisiniz. Həmçinin bəyan etmisiniz ki, münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanmalıdır. Bu, müharibənin praktiki olaraq ikinci günü idi. Oktyabrın 20-də siz Gəncə şəhərinin ballistik raketlərlə bombalanmasını pisləyən bəyanatla çıxış etdiniz, Azərbaycan xalqına başsağlığı verdiniz. Daha sonra, oktyabrın sonunda siz münaqişənin BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində nizamlanmasının zəruri olması barədə bəyanatla çıxış etdiniz, Ermənistan tərəfindən Cenevrə konvensiyalarının pozulması barədə danışdınız. Siz mənə noyabrın əvvəlində məktubla müraciət etdiniz, ayın 2-də isə sizinlə Bakıda görüşdük və siz Azərbaycanı dəstəklədiyinizi bir daha bildirdiniz. 44 gün ərzində dörd dəfə Türk Şurasının Baş katibi adından rəsmi bəyanat verildi. Biz bunu, həmçinin hazırda sizin Azərbaycanda olmağınızı, işğaldan azad edilmiş ərazilərə səfər etməyinizi, eşitdiklərinizi və yəqin ki, qismən televizorda gördüklərinizi öz gözlərinizlə görməyinizi çox yüksək qiymətləndiririk. Buna görə də sizə bütün Azərbaycan xalqı adından təşəkkürümü bildirmək istərdim. Türk Şurası müharibə dövründə bizi hamıdan çox dəstəkləyən təşkilatdır. Biz başqa təşkilatlara - İslam Əməkdaşlıq Təşkilatına da, Qoşulmama Hərəkatına da təşəkkür edirik. Bu müddətdə bizi dəstəkləyən ölkələrə təşəkkür edirik. Ona görə ki, bu çətin vaxtda mənəvi-siyasi dəstək, əlbəttə, bizim xalqımız üçün, habelə baş verənlər barədə həqiqəti bütün dünyanın daha çox bilməsi üçün olduqca vacibdir. Bizim qələbəmizin nəticələrindən biri o oldu ki, bu gün artıq 1990-cı illərin əvvəlində müharibəyə nəyin səbəb olması, işğalın nəticələrinin nədən ibarət olması, işğalçıların zəbt etdikləri ərazilərdə nələr törətməsi barədə heç kəsin şübhəsi yoxdur. Buna görə də həm beynəlxalq hüquq, həm Qarabağın Azərbaycana mənsub olması barədə tarixi həqiqət, həm də bu gün beynəlxalq kütləvi informasiya vasitələrinin, beynəlxalq təşkilatların əyani şəkildə gördükləri bizim haqlı olduğumuzu bir daha sübut edir. Biz 30 il ərzində bunu sübut edirdik və son nəticədə döyüş meydanında işğalçıları müqəddəs torpaqlarımızdan qovaraq silah gücünə bunu sübut etdik.

Sizə bir daha dərin təşəkkürümü bildirirəm. Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər. Buna görə də fikrimcə, əlbəttə, bu mövzu Türk Şurası çərçivəsində müzakirə ediləcək. Biz baş verənləri təhlil edəcəyik və gələcək üçün planlar quracağıq. Lakin artıq əminliklə deyə bilərəm ki, ərazilərin bərpası prosesi də bizə qardaş olan ölkələr tərəfindən dəstəklənəcək.

Əlbəttə, bizim tarix və mədəniyyət abidələrinin bərpasında TÜRKSOY-un fəal dəstəyinə ümid edirəm və buna əminəm. Ona görə ki, azad edilmiş ərazilərdə 70-ə yaxın məscid dağıdılıb, muzeylər qarət edilib, bütün sosial infrastruktur məhv edilib. Siz yəqin ki, Ağdamda Dram Teatrının qalan divarını görmüsünüz. Görünür, sadəcə, dağıtmaqdan yorulublar. Yəqin, sadəcə, daha gücləri çatmayıb. Buna görə də düşünürəm ki, işğalçı qüvvələrin barbarlığını, məhz bizim mədəni-tarixi irsin məhv edilməsini dünya ictimaiyyətinə çatdırmaq, həmçinin bizim tarixi-mədəni abidələrin bərpa edilməsində bizə kömək də TÜRKSOY-un diqqət mərkəzində olacaq. Bu proses artıq başlanıb. Ağdam məscidinə gəldikdə, artıq mütəxəssislər cəlb edilib. Bir neçə gün bundan əvvəl mən Şuşaya səfər edəndən sonra bizim dini abidələrin bərpasına dair işlərin başlanması üçün də göstərişlər vermişəm. Bu məsələdə Heydər Əliyev Fondu fəal rol oynayacaq. Vaqifin məqbərəsinin bərpasına dair təlimatlar da verilib. Mən onun bu il bərpa olunmasını tapşırmışam.

Ardı Səh. 3

# İlham Əliyev: "Böyük qayıdış proqramı hazırlanır"

*Prezident İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyevi videoformatda qəbul edib*

Əvvəli Səh. 2





Biz bu il Vaqif poeziya günləri keçirilməsini bərpa etməyi, həmçinin "Xarı bülbül" festivalı keçirməyi planlaşdırırıq. Mənim Şuşanı Azərbaycanın mədəni paytaxtı elan etməyim təsadüfi deyil. Fikrimcə, Şuşa bərpa ediləndən sonra öz təbiətinə, landşaftına, tarixinə, tarixi abidələrinə görə haqlı olaraq bütün regionun mədəni paytaxtına çevrilə bilər. Əlbəttə, ümid edirəm ki, siz bizə növbəti gəlişinizdə Şuşaya səfər edəcəksiniz. İndi biz artıq oraya yol çəkirik. Lap yaxın vaxtlarda, bu il beynəlxalq aeroport açılacaq. Buna görə də Şuşa hələ çox beynəlxalq tədbirlər görəcək, bütün tarix boyu olduğu kimi, öz dostlarını, qardaşlarını qəbul edəcək. Sizə bir daha təşəkkür edirəm, bizi dəstəklədiyinizə görə sağ olun və sizə ən xoş arzularımı bildirirəm.

XXX

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev:

-Sağ olun, cənab Prezidentim. Bizi bu gün qəbul etdiyinizə görə çox təşəkkür edirəm. Əvvəla, Azərbaycanın Qarabağda qazandığı Zəfər münasibətilə başda Zati-aliniz olmaqla bütün qardaş Azərbaycan xalqını bir daha ürəkdən təbrik edirəm. Azərbaycan torpaqlarının azad edilməsi, sadəcə, Azərbaycanın zəfəri deyil, bütün türk dünyasının böyük zəfəridir. Bu zəfər daim yanınızda olan türk xalqlarını çox sevindirmiş və qürurlandırmışdır. Türk dünyası adından Sizə bir daha təşəkkür edirəm, Azərbaycan və türk dünyasına yeni zəfərlər diləyirəm.

Cənab Prezident, bizə ruh yüksəkliyi verən çıxışınıza görə Sizə dərin təşəkkürümü bildirirəm.

**"Zənnimcə, lap yaxın vaxtlarda biz hamımız dirçəldilmiş şəhərləri görəcəyik"**

Həqiqətən, dünən biz işğaldan azad edilmiş ərazilərdə olduq, praktiki olaraq, tamamilə dağıdılmış obyektləri öz gözlərimizlə gördük. Əlbəttə, bu dağıntıların mənzərəsi olduqca təəssüf doğurur.

Mən mətbuat nümayəndələri ilə görüşüm zamanı demişəm ki, bu torpaqlar heç vaxt sahibsiz olmayıb, bu torpaqların həqiqi sahibləri var, onlar bu torpaqları özlərinə qaytardılar və çox tezliklə bu torpaqları, Füzulinin çiçəklənən torpaqlarını, şanlı Ağdam torpağını və azad olunmuş digər əraziləri bərpa edəcəklər. Bu yerlərin əvvəlki şöhrəti, əvvəlki zəngin siması çox tezliklə bərpa olunacaq.

Noyabrın 2-də biz ölkələrimizin biznes qurumlarının rəhbərləri ilə birlikdə burada olduq. O vaxt biz Azərbaycanın bərpa layihələrində bizim ölkələrin sahibkarlarının iştirakının mümkünlüyü məsələsini müzakirə etdik. Hazırda bu məsələ fəal müzakirə olunur. Tezliklə Bakıda bizim sahibkarların bu işlərdə iştirakına dair böyük biznes forum keçirəcəyik. Dünən mən digər türk təşkilatlarının rəhbərləri - TÜRKSOY-un Baş katibi Düsen Kurabayeviç Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva ilə birlikdə işğaldan azad edilmiş ərazilərdə olmaq şərəfinə nail oldum. Biz mədəni abidələrin bərpasında bizim təşkilatların iştirakının mümkünlüyünü də müzakirə etdik və tezliklə bizim ölkələrlə birlikdə müvafiq iş aparacaq, görüşlər keçirəcək, bu abidələrin bərpasında Azərbaycanla birlikdə necə iştirak edəcəyimizi müzakirə edəcəyik.

Ölkələrimiz arasında ilkin danışıqlar bizim ölkələrimizin və xalqlarımızın Azərbaycana kömək etmək əzminin çox möhkəm olmasını göstərdi. Biz hər il türk dünyasının mədəni paytaxtını elan edirik. 2022-ci ildə Şuşanın belə paytaxt elan olunmasını və mədəni xarakterli çoxlu tədbirlər keçirilməsini təklif edirik. Bu tədbirlər Şuşanın bütün türk və İslam dünyası üçün böyük mədəni əhəmiyyətini vurğulayar. Dünən biz bu məsələni xarici işlər naziri cənab Bayramovla da müzakirə etdik. Siz icazə versəniz, biz bu işə başlayarıq, 2022-ci ildə Şuşada 20-yə yaxın mədəni tədbir keçirərik. Əminik ki, o vaxta qədər Şuşa bərpa olunacaq, öz əvvəlki simasını alacaq. Biz həmişə Sizin yanınızda olmuşuq və həmişə Sizin yanınızda olacağıq.

Fürsətdən istifadə edib, Türk Şurasının cari gündəliyi barədə Sizə məruzə etmək istərdim. Biz Bakı Sammiti zamanı Sizin verdiyiniz göstərişə əsasən, 2020-2025-ci illər üçün türk strategiyasının və 2020-2040-cı illər üçün türk dünyası barədə təsəvvürlərimizi əks etdirən sənədin hazırlanmasını başa çatdırmışıq. Bu sənəd türk dünyasının gələcəyini, bizim əməkdaşlığımızı, bütün sahələrdə - siyasət, iqtisadiyyat, mədəniyyət, təhsil, turizm, gənclər və başqa sahələrdə inteqrasiyanı əks etdirir. Hazırlanmış həmin "Turkic World Vision-2040" sənədinin surətini bu gün mən Sizə təqdim etməyi özümə şərəf sayıram. Siz Türk Şurasının üzvü olan ölkələrin nazirlikləri və idarələri ilə sıx əlaqəli şəkildə işlənib hazırlanmış bu sənədi bəyənəndən sonra qarşıdakı sammitdə biz bir il ərzində onu reallaşdırmağa başlayacağıq.

Biz həm də bu il martın sonunda Türküstanda Qazaxıstanın Birinci Prezidenti - Elbası Nursultan Abişeviç Nazarbayevin təşəbbüsü ilə qeyri-rəsmi sammitə, həmçinin bu ilin payızında İstanbulda keçirilməsi planlaşdırılan Türk Şurasının növbəti sammitinə hazırlaşırıq. Fikrimcə, bu sammitlər Sizin dəstəyinizlə bizim inteqrasiyanın inkişafı, türk dünyasının birləşməsi üçün daha bir dönüş anı olacaq. Cənab Prezident, Türk Şurası bizim münasibətlərin daha da dərinləşməsi üzrə bütün zəruri işləri görməyə həmişə hazırdır. Türk dünyası üçün gördüyünüz bütün işlərə görə çox sağ olun.

XXX

Sonra Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı - TÜRKSOY-un Baş katibi Düsen Kaseinov və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva görülən işlər barədə Prezident İlham Əliyevə məlumat verdilər, türkdilli dövlətlərin və xalqların mədəni irsinə həsr edilmiş kitabları dövlətimizin başçısına təqdim etdilər.

## Vladimir Kreydenko: Yanvar hadisələri Azərbaycanda sovet hakimiyyətinin süqutunun başlanğıcı oldu

***Bu günlərdə biz Azərbaycan xalqının tarixində 31 il bundan əvvəl Bakıda faciəli hadisələri xatırlayırıq. Həmin gün sovet ordusu kommunist rejimini qorumaq məqsədilə dinc dövrdə sovet şəhərinə hücum etmişdi. Əfsuslar olsun ki, həmin cinayətkar hərəkətlər nəticəsində 140 nəfərdən çox dinc sakin həlak oldu, yüzlərlə insan yaralandı. Bu barədə AZƏRTAC-a müsahibəsində Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Vladimir Kreydenko bildirib.***



Onun sözlərinə görə, bu hadisələr Azərbaycanda sovet hakimiyyətinin süqutunun başlanğıcı oldu. Buna bənzər hadisələr daha əvvəl Alma-Atada (1986), Tbilisidə (1989), sonradan Düşənbədə (1990), Vilnüs və Riqada (1991) baş verdi. V.Kreydenko deyib: "Ukrayna ilə Azərbaycan Respublikası arasında əlaqələr üzrə parlamentlərarası qrupun həmsədri kimi mən Ukrayna parlamentinin bütün üzvləri adından həmin faciəli hadisələrdə günahsız qurbanların ailələrinə başsağlığı vermək istərdim. Bütün ölkələrin hökumətləri buna bənzər tarixi hadisələrdən dərs götürməlidirlər ki, bir daha heç bir ölkədə dinc sakinlərə qarşı belə dəhşətli cinayətlər baş verməsin".

## Ukrayna Ali Radasının deputatı:
## 20 Yanvar adi təqvim günü deyil



20 Yanvar adi təqvim günü deyil. Ola bilər ki, dünyanın əksər millətləri üçün bu, doğrudan da belədir. Lakin azərbaycanlılar üçün və ümidvaram ki, keçmiş SSRİ-nin digər xalqları üçün bu, belə deyil. Ukrayna Ali Radasının deputatı, Ukrayna-Azərbaycan dostluq qrupunun həmsədri Valeri Kolyux bu fikirləri AZƏRTAC-a müsahibəsində söyləyib. Onun sözlərinə görə, 1990-cı ilin bu günü qayıtmazlıq nöqtəsi, Azərbaycan xalqının ürəyinə sağalmaz yaralar vuran gün olub. V.Kolyux deyib: "Həmin gün kiminsə babası, kiminsə atası evə qayıtmayıb, kimsə oğlunun və ya qızının gülüşünü bir daha eşitməyib. Bu, Qarabağın müharibə alovunda şölələnməyə başladığı bir vaxtda baş verirdi. Mən Qara Yanvar qurbanları üçün kədərlənirəm. Mən o dövrdə öz yaxınlarını itirənlərin birgə kədərlərinə şərik olduğumu bildirirəm. Mən bütün Azərbaycan xalqı ilə birgə kədərlənirəm. Lakin onu demək istəyirəm ki, bu dəhşətli insan təlefatı əbəs yerə deyildi. Təkcə Azərbaycan üçün deyil, həm də Ukrayna, Litva, Latviya üçün".

## Vyetnam mətbuatı Azərbaycan Prezidentinin Füzuli və Şuşaya səfərindən yazır

Vyetnamın dövlətə məxsus nüfuzlu "Voice of Vietnam" teleradio şirkətinin saytında Prezident İlham Əliyevin Füzuli və Şuşaya səfəri barədə məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Prezidentinin Füzuli beynəlxalq hava limanının və Füzuli-Şuşa avtomobil yolunun təməlqoyma mərasimində iştirakı barədə məlumat verilib. Qeyd olunub ki, həmin infrastruktur layihələrinin həyata keçirilməsi Qarabağa, o cümlədən Şuşaya xarici turistlərin cəlb olunmasına şərait yaradacaq.




Həmçinin məqalədə Füzuli hava limanının qısa zamanda beynəlxalq standartlara uyğun şəkildə inşa ediləcəyi vurğulanıb.

# YAP İdarə Heyətinin iclası keçirilib



***Yanvarın 19-da Yeni Azərbaycan Partiyası İdarə Heyətinin növbəti iclası keçirilmişdir. İclasda YAP İdarə Heyətinin 2020-ci ilə dair illik hesabatı, Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin və Qadınlar Şurasının fəaliyyəti haqqında hesabat, partiyanın 2020-ci il üzrə maliyyə hesabatı, eləcə də İdarə Heyətinin 2021-ci ilin birinci rübünə dair iş planı müzakirə olunaraq qəbul edilmişdir.***

İdarə Heyətinin iclasında vurğulanmışdır ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması ilə nəticələnən Vətən müharibəsi Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmış ən şərəfli səhifələrdən biri olmuşdur. Vətən müharibəsi dövründə YAP milli həmrəyliyə səsləyən bir sıra bəyanat və müraciətlər qəbul etmiş, Ermənistanın hərbi təxribatları ilə əlaqədar "Youtube", "Twitter", "Facebook", "İnstagram" və "Telegram" üzərindən çoxsaylı aksiyalar keçirmiş, 55 beynəlxalq təşkilata, 75 beynəlxalq KİV-ə, 197 parlamentə, onların sədrlərinə və deputatlarına, 97 dövlət və hökumət başçısına, 187 siyasi partiyaya, 165 ölkənin xarici işlər nazirliklərinə, ümumilikdə 800-ə yaxın ünvana təxminən 500 minədək e-mail göndərmişdir.

İdarə Heyətinin iclasında 2020-ci il fevral ayının 9-da Milli Məclisə seçkilərin keçirilməsində, habelə koronavirus pandemiyasına qarşı mübarizənin aparılmasında Yeni Azərbaycan Partiyasının könüllülərinin fəaliyyəti barədə məlumat verilmişdir. Bildirilmişdir ki, Prezidentin sərəncamı ilə könüllülər ili elan edilən 2020-ci ildə partiyanın könüllüləri pandemiya ilə mübarizə çərçivəsində 70 mindən çox aztəminatlı ailəyə Heydər Əliyev Fondunun, Yeni Azərbaycan Partiyasının, eləcə də, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin xətti ilə ayrılmış yardımların çatdırılmasını təmin etmişdir.

İdarə Heyətinin iclasında, həmçinin YAP-ın 2020-ci ilə dair gəlirləri və xərcləri barədə hesabat dinlənilmişdir. Qeyd olunmuşdur ki, 2020-ci ildə Yeni Azərbaycan Partiyasının gəlirləri 12 288 708 manat olmuşdur. Bunun 10 346 294 manatını üzvlük haqları, 1 942 414 manatını büdcədən siyasi partiyalara ayrılan dövlət dəstəyindən Yeni Azərbaycan Partiyasına düşən pay təşkil etmişdir.

Yeni Azərbaycan Partiyasının hesabına daxil olan maliyyə vəsaitinin 6 969 745 manatı partiyanın İcra Katibliyinin və yerli təşkilatlarının əməkdaşlarının əmək haqqının ödənilməsinə, 452 599 manatı Silahlı Quvvələrin Yardım Fonduna, YAŞAT Fonduna və bu qəbildən digər humanitar aksiyalara, 625 148 manatı Koronavirusla Mübarizəyə Dəstək Fonduna və bu qəbildən digər humanitar aksiyalara, 347 569 manatı partiya və onun yerli təşkilatlarının, gənclər və qadınlar təşkilatlarının keçirdiyi tədbirlərin maliyyələşməsinə, xeyriyyə aksiyalarına, 34 357 manatı ezamiyyə xərclərinə, 302 192 manatı avtonəqliyyat xərclərinə, 242 229 manatı təsərrüfat inventarlarının alınmasına, 162 621 manatı təmir işlərinə, 457 566 manatı kommunal və təsərrüfat xərclərinə, 80 739 manatı bank xidmətinə, 86 610 manatı abunə ilə bağlı ödənişlərə, 57 720 manatı dəftərxana xərclərinə, 144 611 manatı çap işlərinə, 237 592 manatı isə sair xərclərə sərf edilmişdir.

# Arye Qut: Azərbaycan postsovet məkanında öz ərazi bütövlüyünü bərpa etməyə nail olmuş yeganə ölkədir



Azərbaycan Prezidentinin bu yaxınlarda işğaldan azad edilmiş Şuşaya səfəri böyük marağa səbəb olub və bu səfər Azərbaycan üçün böyük tarixi və mənəvi əhəmiyyətə malikdir. Azərbaycanın parlaq və müzəffər qələbəsi, Ermənistanın tam kapitulyasiyası ilə başa çatmış 44 günlük Vətən müharibəsi hələ uzun illər boyu dünyanın bir sıra ölkələrində öyrəniləcək, müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin və İsraildə Azərbaycan Evinin icraçı direktoru, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut söyləyib. Qutun fikrincə, Prezidentin və onun ailə üzvlərinin bu yaxınlarda Şuşaya tarixi səfəri onun ənənələrə sadiqliyinin növbəti təzahürü olub.

İsrailli ekspert deyib: "Azərbaycan mədəniyyətinin bu incisi 28 il erməni işğalçıların əlində olub. Əsrlərboyu Azərbaycan mədəniyyətinin beşiyi olmuş bu şəhər Azərbaycan xalqına dünya şöhrətli Üzeyir Hacıbəyli və Rəşid Behbudov, həmçinin Xurşidbanu Natəvan, Bülbül, Xan Şuşinski və Niyazi kimi parlaq şəxsiyyətlər, incəsənət, poeziya və mədəniyyət xadimləri bəxş edib. Bu böyük şəxsiyyətlərin hamısı Azərbaycanın dilbər guşəsi olan Şuşada doğulub, orada boya-başa çatıb. Şuşa bütün azərbaycanlılar üçün xüsusi əhəmiyyət kəsb edir. Yerusəlim yəhudilər üçün nə deməkdirsə, Şuşa da azərbaycanlılar üçün elədir. Onlar bu yenilməz qalada doğulub və Azərbaycanın ucsuz-bucaqsız vadilərindən axıb gələn saf dağ selləri kimi minilliklər boyu Azərbaycanın gözəlliklərini yaradıblar".

Arye Qut yazır ki, Prezident İlham Əliyevin müdrik və uğurlu rəhbərliyi, Azərbaycan əsgərlərinin və zabitlərinin mərdliyi, igidliyi, fədakarlığı və qəhrəmanlığı sayəsində Azərbaycan bu gözəl, tarixi şəhəri erməni işğalçılar tərəfindən məhv olmaqdan azad edib. Azərbaycanlılar Şuşanın itirilməsi ilə heç vaxt barışmazdılar, onlar hər kəs üçün müqəddəs olan Şuşaya qayıtmalı idilər və qayıtdılar!

Prezident Əliyev Şuşadakı çıxışında deyib: "Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Heç bir danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik".

İsrailli ekspertin fikrincə, Azərbaycan inamla və qətiyyətlə öz ərazilərini işğaldan tam azad edib. Bu məsələdə hər hansı yarımçıq variantlar nəzərdən keçirilmirdi. Müasir müharibədə hansı tərəfin döyüş əməliyyatlarını təmin etmək üçün daha mükəmməl yüksək texnoloji vasitələri varsa, həmin tərəf qalib gəlir. Azərbaycan otuz il erməni işğalı altında olmuş ərazilərini azad edərək qalib gəldi və Cənubi Qafqaz regionunda özünün geosiyasi, hərbi-texniki, texnoloji və diplomatik gücünün artmasını bütün dünyaya sübut etdi.

Bakıda keçirilən Zəfər Paradında Azərbaycan Silahlı Qüvvələrinin təchizatında olan və bu yaxınlarda başa çatmış müharibənin gedişində fəal istifadə edilmiş əsas silah və hərbi texnika nümunələri nümayiş etdirildi. Şübhəsiz, Azərbaycan qoşunlarının uğur qazanmasında böyük rol oynamış Türkiyə və İsrail istehsalı olan pilotsuz uçuş aparatları və raket kompleksləri xüsusi diqqətə layiq idi.

İsrailli ekspert vurğulayır ki, bu gün Azərbaycan postsovet məkanında otuz ildən sonra öz ərazilərini işğaldan azad etməyə və ərazi bütövlüyünü bərpa etməyə nail olmuş yeganə ölkədir.

Prezident İlham Əliyev Şuşaya tarixi səfəri zamanı deyib: "Şuşanı Cıdır düzüsüz təsəvvür etmək mümkün deyil, Azərbaycanı isə Şuşasız təsəvvür etmək mümkün deyil. Biz Şuşaya qayıtmışıq, Cıdır düzünə qayıtmışıq və tarixi yerdə bundan sonra muğam səsi eşidiləcək, Azərbaycan mahnıları ifa olunacaq, böyük tədbirlər keçiriləcək, toybayram olacaq".

Azərbaycan Prezidenti, Respublika Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev, güclü, yaxşı təchiz olunmuş müasir Azərbaycan Ordusu ilə birlikdə kənardan müxtəlif təzyiqlərə baxmayaraq tarixi addım atmağa və işğal olunmuş torpaqları qaytarmağa, yəni bu işi qələbə ilə sona çatdırmağa nail oldu. Bunu hər siyasi lider bacarmazdı. Qeyd etmək lazımdır ki, strateji təfəkkür, güclü diplomatiya, dövlət başçısının qətiyyəti və dönməzliyi, habelə xalqın və ordunun ona inamı bu parlaq qələbəyə gətirib çıxardı.

# Sergey Lavrov: "Ermənistan rəsmilərinin açıqlamaları gərginlik yaradır"



Sergey Lavrov Qarabağla bağlı emosional açıqlamaların əks nəticə verdiyi qənaətindədir. SİA xəbər verir ki, nazir bu qənaəti barədə mətbuat konfransında söyləyib. Eyni zamanda, rusiyalı nazir qeyd edib ki, Ermənistan rəsmilərinin bəzi açıqlamaları şübhəsiz ki, gərginliyə səbəb olur. "Düşünürəm ki, bunun qarşısını almaq daha yaxşı olardı. 44 günlük müharibə başlamazdan əvvəl Qarabağdan səsləndirilən, yaxud Qarabağ barədə səsləndirilən fikirlərin, məsələn, "yeni müharibə, yeni ərazilər deməkdir", kimi emosional ifadələrin, açıqlamaların şahidi olduq. Onun da şahidi olduq ki, ifadələr maddi qüvvəyə çevrilir və bunun Ermənistan üçün acı nəticələrini də müşahidə etdik. Bu vəziyyətdə ifadə olunan emosional fikirlər çox mənfi maddi qüvvəyə, gücə çevrilir", deyə Lavrov bildirib.

O, həmçinin qeyd edib ki, indi Ermənistan və Azərbaycan rəhbərliyi arasında təmasların qurulmasına, etimad mühitinin yaradılmasına çox diqqət yetirilir və bu, üç ölkənin liderlərinin iştirakı ilə Moskvada keçirilən görüşün vacib mənalarından biri də bu idi və Rusiya emosiyaların kənara qoyulacağına ümid edir.

*İnam Hacıyev*

# Qarabağda tapılan erməni cəsədlərinin sayı 1246 oldu



Qarabağda daha yeddi erməni əsgəri və bir mülki şəxsin qalıqları tapılıb. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə qondarma rejimin Fövqəladə Hallar üzrə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Hunan Tadevosyan çərşənbə axşamı "Sputnik Ermənistan"-ın müxbirinə məlumat verib.

Məlumatda qeyd olunub ki, son döyüş əməliyyatları aparılan ərazidə axtarış işləri başlayandan bəri hərbi və mülki şəxslər olmaqla, cəmi 1246 cəsəd və onların qalıqları tapılıb. "Qarabağın Hadrud bölgəsində bir mülki şəxsin və bir əsgərin cəsədi tapılıb. Daha beş əsgərin cəsədi Cebrail ərazisində, bir əsgərin cəsədi isə Ermənistanın Sünik bölgəsində tapılıb", dedi Tadevosyan bildirib. Onun sözlərinə görə, hərbi qulluqçuların şəxsiyyətinin müəyyənləşdirilməsi üçün məhkəmə ekspertizası təyin edilib.

# Çili agentliyi Azərbaycanın tarixi, dini abidələrinin ermənilər tərəfindən dağıdılmasından bəhs edən məqalə yayıb




***Çilinin "Infogate" informasiya agentliyində "Azərbaycan Ermənistan tərəfindən işğal edilmiş ərazilərdə tarixi məscidlərin dağıdılmasını pisləyir" adlı məqalə dərc edilib.***

AZƏRTAC xəbər verir ki, məqalədə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) Baş katibi Düsen Kaseinovun Azərbaycanın azad edilmiş Ağdam şəhərindəki Cümə məscidini ziyarət etdiyi bildirilir. Baş katibin Azərbaycan xalqının, bütövlükdə türk xalqlarının görkəmli nümayəndələrinin yaratdıqları abidələrin bərpa olunmasının önəmini qeyd etdiyi bildirilir.

"Infogate" agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Qarabağda ermənilər tərəfindən dağıdılmış bütün tarixi və dini abidələrin bərpa ediləcəyi, bütün dinlərin məbədlərinin qorunduğu və qorunacağı ilə bağlı fikirlərinə də yer verib.



# Güclü iqtisadiyyata malik olan dövlət hər şeyə qadirdir

*İlham Əliyev: "Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq"*

***Bəli, həqiqətən də bu, danılmaz aksiomadır. Məhz ölkəmizin iqtisadiyyatın inkişaf tempinə görə regionda lider dövlətə çevrilməsi də təsadüfi deyil. Azərbaycan hökumətinin yürütdüyü müstəqil siyasət həmişə birmənalı olub. Prezident İlham Əliyev bildirir: "Güclü dövlət, güclü iqtisadiyyat və sosial rifah. Bax, bu prinsiplərin vəhdəti bu gün Azərbaycanı dünyada seçilmiş ölkələrin sırasına daxil edibdir. Bunun nəticəsində, biz uğurla inkişaf edirik. Məhz Azərbaycan iqtisadiyyatının güclü olmasıdır ki, Müzəffər Güclü Ordumuzun gücü ilə 30 illik işğal altında olan torpaqlarımızın azad olunmasına nail olduq."***

Yanvarın 18-də Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı, "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı zavodlarının təməlini qoyub, "Azerfloat" QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılışını edib. Sonra Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibə verib.

### "Sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması yeni reallıq yaradıb"

Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir. Eyni zamanda, son illər ərzində Sumqayıtda yaradılmış bütün müəssisələr ən yüksək ekoloji standartlara cavab verir. Sumqayıt üçün bunun xüsusi əhəmiyyəti var". Bu fikirləri Prezident İlham Əliyev Sumqayıt Kimya Sənaye Parkında "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı, "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı zavodlarının təməlqoyma və "Azerfloat" QSC-nin termoformasiya metodu ilə vərəqə şüşə istehsalı müəssisəsinin açılış mərasimlərindən sonra Azərbaycan Televiziyasına müsahibəsində söyləyib.

Əvvəllər Sumqayıtın ekoloji fəlakət zonası olduğunu xatırladan dövlətimizin başçısı deyib ki, Sumqayıtı müasir sənaye mərkəzinə çevirərək, ilk növbədə, insanların sağlamlığını nəzərə almışıq: "Bildiyiniz kimi, sovet vaxtında burada tikilmiş çoxsaylı müəssisələr istismar müddətini başa vurmuşdu, sıradan çıxmışdı və ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi. O müəssisələr söküldü və mənim göstərişimlə 10 il bundan əvvəl onların ərazisində 500 hektar sahəni əhatə edən Sumqayıt Kimya Sənaye Parkı yaradılmışdır. Son illər ərzində bu sənaye parkı o qədər böyüdü və genişləndi ki, artıq göstəriş verildi, əlavə torpaq sahələri tapılsın və bu istiqamətdə işlər aparılır. Bu müəssisənin təməlini 2017-ci ildə mən özüm şəxsən qoymuşam və şadam ki, artıq 100 milyon avro dəyərində bu böyük layihə həyata keçdi və bizi vərəqə şüşələrin idxalından azad edəcək. Bu, o deməkdir ki, valyuta qalacaq ölkəmizdə, yerli istehsal canlanacaq, iş yeri yaradılacaq və iqtisadiyyatımızın şaxələndirilməsi təmin ediləcək".

Dövlət başçısı qeyd edib ki, biz hətta dünya bazarlarında neftin qiymətinin aşağı səviyyədə olduğu bir dövrdə də öz dayanıqlılığımızı qoruya bilmişik: "Mən bu yaxınlarda ilin yekunları ilə bağlı keçirdiyim müşavirədə qeyd etdim ki, bizim valyuta ehtiyatlarımız azalmayıb, hətta az da olsa, artıb. Nəyə görə? Çünki qeyri-neft sektoru uğurla inkişaf edib. Bütün dünya ölkələrində 2020-ci il iqtisadi tənəzzül ili olmuşdur, bizdə də, həmçinin. Amma bizdə tənəzzül cəmi 4,3 faiz olmuşdur. İnkişaf etmiş bəzi ölkələrdə bu, daha böyük rəqəmlərlə ölçülür. Amma bizdə qeyri-neft sənaye sahəsində artım 12,5 faiz olub, məhz bu kimi müəssisələrin hesabına. Sənaye, kənd təsərrüfatı, qeyri-neft sektoru, ixrac imkanları, idxaldan asılılığın azaldılması - bütün bu amillər bugünkü yeni reallığı yaradıb. Beləliklə, ölkəmizin uzunmüddətli dayanıqlı inkişafı təmin ediləcək".

### "Bugünkü Azərbaycana investisiyalar daha böyük həcmdə gələcək"

"Son 17 il ərzində mən Sumqayıtda bəlkə də 30 dəfə olmuşam. Hər dəfə burada olanda, həm sənaye müəssisələrinin işə düşməsi, eyni zamanda, şəhərsalma ilə bağlı görülən işlər, insanları narahat edən problemlərin həlli daim diqqət mərkəzində olur. Bu gün Sumqayıt həm memarlıq, həm də ekoloji baxımdan gözəl şəhərdir, havası təmizdir, gözəl bulvarı var və iş yerləri də yaradılır. Bax, bu 3 müəssisədə 350-dən çox iş yeri yaradılıb və burada işləyənlərin əksəriyyəti yerli sakinlər olacaq",-deyən dövlət başçısı bildirib ki, biz bu müəssisələri yaratmaqla həm bu günün məsələlərini həll edirik, həm də gələcək məsələləri: "Nə üçün Azərbaycanda bizə lazım olan bütün istehsalat sahələri yaradılmasın? Sadəcə olaraq, həm xarici, həm də yerli investorların ölkəmizin gələcəyinə inamı olmalıdır, bu da həmişə olub, bu gün də var. Gözəl investisiya iqlimi olmalıdır. Dünya Bankının "Doing Business" hesabatında biz 10 ən islahatçı ölkə sırasındayıq və dünya miqyasında 28-ci yerdəyik. Sabitlik olmalıdır, xalq-iqtidar birliyi olmalıdır, əmin-amanlıq olmalıdır, təhlükəsizlik olmalıdır və buna da biz nail olmuşuq".

Dövlət başçısı müsahibə zamanı ölkəmizdə islahatların - kadr islahatları, struktur islahatları, iqtisadi islahatlar, sosial sahədə islahatlar aparıldığını deyib: "Bu gün dünyada Azərbaycan kimi inkişaf üçün bir çox amilləri özündə ehtiva edən ölkələrin sayı azdır. Siyasi sabitlik, xalq-iqtidar birliyi, əmin-amanlıq, coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, - bu, çox önəmlidir, - ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər, heç bir ölkə ilə problemin olmaması. İndi mən ümid edirəm, müəyyən müddətdən sonra Ermənistan da deyəcək ki, onların da bizimlə heç bir problemi yoxdur. Çünki əsas məsələ bunda idi, onlar bizim torpağımızı işğal etmişdilər. Onlar bizə qarşı soyqırımı törədiblər. Onlar bizim şəhərlərimizi yerlə bir ediblər. Biz, sadəcə olaraq, özümüzü müdafiə etmişik, lazımi səviyyədə müdafiə etmişik və işğalçıları torpaqlardan qovmuşuq".



Prezident İlham Əliyev ölkəmizin inkişafı üçün yeni bir dövrün başladığını vurğulayıb: "Bütün bu amillər ola-ola bu gün biz azad edilmiş torpaqlara qayıdaraq, o torpaqların potensialından istifadə edəcəyik. Orada çox böyük potensial - bərpaolunan enerji növləri, qiymətli təbii sərvətlər, qızıl yataqları, mis yataqları, çaylar, su anbarları, kənd təsərrüfatı üçün münbit torpaq, turizm imkanları var. Yəni, bu bölgələr bir çoxlarının fikrinə görə, növbəti inkişafımızın aparıcı qüvvəsinə çevriləcək. Mən də əlbəttə ki, bu fikri bölüşürəm. Sadəcə olaraq, azad edilmiş torpaqlarda hər şey planlı şəkildə aparılmalıdır, düzgün aparılmalıdır".

### "Bu gün mənim fəaliyyətimdə Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur"

"Azad edilmiş torpaqların idarə edilməsi ilə bağlı fikirlərim var. Bu fikirlər yaxın zamanlarda həyata keçiriləcək. O bölgələrdə mövcud olan vəziyyətə uyğun müasir idarəetmə sistemi qurulmalıdır ki, orada hər şey planlı şəkildə təmin edilsin - şəhərsalma, dövlət orqanlarının funksiyaları",-deyən dövlət başçısı qeyd edib ki, ölkəmizin müxtəlif yerlərində bəzi xoşagəlməz hallar məhz nəzarətsizlik ucbatından baş verir: "Bəzi yerlərdə torpaqlar zəbt edilir, insanların əlindən alınır, qeyri-ədalətli şəkildə bölünür. O cümlədən su resursları qeyri-ədalətli şəkildə bölünür, bəzilərinə su çatır, bəzilərinə su çatmır. Bütün bunlar bizə yaraşmır. Biz özümüzü bu qüsurlardan təmizləməliyik və təmizləyirik. Təmizləmə prosesi gedir və gedəcək. Hər kəs bunu bilsin. Heç kim hesab etməsin ki, onun hansısa xüsusi imtiyazı var. Yaxud da ki, kimsə özünü toxunulmaz hesab etməsin".

Prezident İlham Əliyev vurğulayıb ki, azad edilmiş torpaqlarda hər şey demək olar ki, dağıdılıb: "Ona görə biz elə bir inkişaf modeli qurmalıyıq ki, ondan sonra biz onu bütün başqa torpaqlara da, necə deyərlər, transfer edə bilək, mövcud qüsurlar aradan qalxsın və ölkəmizin uğurlu inkişafı təmin edilsin. Mənim, əlbəttə ki, əsas işim Qarabağ məsələsinin həlli və sentyabr ayından başlayaraq gedən müharibəyə Ali Baş Komandan kimi rəhbərlik etməyim idi. Bu gün də mənim fəaliyyətimdə o bölgələrin - Qarabağ bölgəsinin bərpası xüsusi yer tutur. Bu, təsadüfi deyil, bu, təbiidir. Ancaq, eyni zamanda, mən ənənəvi iş fəaliyyətimə də həmişə diqqət yetirmişəm. Sumqayıta gəlməyim onu bir daha göstərir.

Müharibə başa çatdı, müzəffər Ordumuz müharibədə qələbə çaldı, düşməni məğlub etdi. Azad olunmuş torpaqların bərpası üçün əlimizdən gələni edəcəyik. Hər gün mənim işimin əsas hissəsi buna həsr olunur. Ancaq digər ərazilərin inkişafı da heç vaxt yaddan çıxmayacaq, Azərbaycan xalqı əmin ola bilər. Əminəm ki, biz bu ili də uğurla başa vuracağıq, daha güclü Azərbaycan quracağıq".

**RƏFİQƏ KAMALQIZI**

# 20 Yanvar - xalqın azadlıq yolu




***Azərbaycan xalqının qəhrəmanlıq səhifəsi olan 20 Yanvar faciəsindən 31 il ötür. 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet ordusunun hərbi hissələri Bakı şəhərində öz suverenliyini əldə etmək üçün ayağa qalxan dinc əhaliyə qarşı misli görünməmiş qətliam törədiblər. Bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Bu, uzun illər Sovet imperiyasının əsarətində yaşayan xalqın azadlıq səsini ucaltdığı, öz suverenliyi uğrunda cəsarət nümayiş etdirdiyi şərəfli tarixdir. Bu tarix həm də kimin kim olduğunu sübut edən növbəti imtahan idi.***

20 yanvar faciəsinin törədilməsində əsas məqsədlərdən biri öz haqlı tələblərini irəli sürən, bu tələblərə demokratik yollarla nail olmaq istəyən, istiqlaliyyət, azadlıq, suverenlik istəyində olan Azərbaycan xalqının iradəsini qırmaq və insanların müstəqillik arzularını tankların tırtılları altında əzmək idi. Sovet imperiyası günahsız insanların qanını axıtsa da, xalqımıza qarşı misli görünməmiş qəddarlıq etsə də, istəyinə nail ola bilmədi və milli qürurumuzu qıra bilmədi. Xalqa qarşı törədilən bu cinayət Sovet imperiyasının iç üzünü bariz bir şəkildə ortaya çıxardı. Əslində, imperiyanın Bakıda qanlı hadisəni törətməklə, İttifaqa üzv olan digər respublikalara gözdağı vermək planı və imperiyanı zor gücünə mühafizə etmək təşəbbüsü də boşa çıxmış oldu.

Azərbaycanda günahsız insanların güllələbaran edilməsi əməliyyatı SSRİ Müdafiə Nazirliyi, DİN xüsusi təyinatları və SSRİ DTK-nın "A" təxribat qrupları tərəfindən təşkil olunmuşdu. Bu faciəni törədənlər Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, ərazi bütövlüyü və suverenlik uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi.

SSRİ DTK-nın "Alfa" qrupu yanvarın 19-da saat 19.27-də Azərbaycan Televiziyasının enerji blokunu partlatdı, respublikada televiziya verilişləri dayandırıldı. Gecə isə qoşun fövqəladə vəziyyət elan edilməsindən xəbərsiz olan şəhərə daxil oldu və əhaliyə divan tutmağa başladı.

M.Qorbaçovun fərmanı ilə paytaxtımızda fövqəladə vəziyyət elan olundu. Bakıda fövqəladə vəziyyətin elan olunması haqqında məlumat isə əhaliyə yalnız yanvarın 20-də səhər saat 7-də respublika radiosu ilə çatdırıldı. Həmin vaxt öldürülənlərin sayı 100 nəfərdən çox idi. 1990-cı ilin yanvarında Sovet qoşunlarının Bakıda həyata keçirdikləri qırğınlarda 131 nəfər öldürülmüş, 600-dən çox adam yaralanmışdı. Öldürülənlər arasında beş millətin nümayəndələri, 20-dən çox qadın və uşaq var idi.

20 Yanvar Azərbaycan tarixində qanla yazılmış bir səhifə olsa da, bu tarix Azərbaycanın istiqlal yolunun ilk zirvəsi, milli məfkurəmizin azadlıq istəyinin oyanış günüdür. Xalq o günlərdə böyük bir həqiqəti - həqiqi liderin meydanda olmamasını da bütün mahiyyəti ilə dərk etdi. O müdhiş gündə Ulu Öndər Heydər Əliyev xalqının səsinə hər kəsdən əvvəl səs verdi. Ümummilli Lider Moskvada xüsusi nəzarət altında ola-ola, özünün və ailə üzvlərinin həyatını açıq təhlükə qarşısında qoyaraq, hadisələrdən dərhal sonra, 1990-cı il yanvarın 21-də ailəsi ilə birlikdə ölkəmizin Moskvadakı Daimi Nümayəndəliyinə gəldi, təcavüzə kəskin etirazını bildirdi, faciəni törədənləri, şəxsən, M.S.Qorbaçovu kəskin ittiham etdi, qoşunların Bakıdan çıxarılmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev bununla, hər şeydən əvvəl, Vətən, xalq qarşısında vətəndaşlıq və milli mövqeyini nümayiş etdirdi. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 1990-cı il 21 yanvar tarixli bəyanatı həm də faciəyə verilən ilk siyasi qiymət idi.

Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra bu məsələ yenidən gündəmə gəldi, 20 Yanvar hadisələrini lazımınca qiymətləndirmək yolunda ciddi addımlar atıldı. 1990-cı il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 20 Yanvar faciəsi ilə bağlı tarixi qərar qəbul etdi.













20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" Dahi Öndər Heydər Əliyevin 5 yanvar 1994-cü il tarixli Fərmanı ilə Milli Məclisə 20 Yanvar hadisələrinə tam siyasi-hüquqi qiymət verilməsi tövsiyə olundu. Milli Məclisdə müzakirələrin yekunu olaraq, 1994-cü il martın 29-da "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul edildi. Qərarda 1990-cı ilin qanlı 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verildi.

Ümummilli Lider Heydər Əliyev, 20 Yanvar hadisələri zamanı həlak olanların xatirəsinin əbədiləşdirilməsi istiqamətində də, bir sıra mühüm tədbirlər həyata keçirdi. Ulu Öndər Heydər Əliyev 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra, ilk olaraq, Şəhidlər Xiyabanını ziyarət etdi və tapşırıq verdi ki, qısa müddətdə, bütün şəhid məzarlarının üstü götürülsün və burada memorial kompleks ucaldılsın. Bunun üçün dövlət səviyyəsində lazımi vəsait ayrıldı və bu iş qısa zamanda başa çatdırıldı. Məhz Ulu Öndərin Sərəncamı ilə 20 Yanvar Ümumxalq Hüzn Günü elan olundu.

Bu gün Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev müharibə veteranlarının, şəhid ailələrinin və əlillərin problemlərinin dövlət səviyyəsində həllini mühüm vəzifələrdən biri kimi qarşıya qoyub. Ölkəmizdə bu istiqamətində böyük tədbirlər həyata keçirilir. Şəhid ailələrinin və əlillərin sosial təminatı ildən-ilə daha da möhkəmləndirilir. Ölkənin iqtisadi durumunun yüksəlməsi özünü bu qəbildən olan insanların həyat və məişətində daha qabarıq göstərir.

Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsi gücləndirilir. Azərbaycan dövlətinin öz vətəndaşlarına göstərdiyi diqqət və qayğı bütün cəmiyyətimiz, o cümlədən, müharibə əlilləri və şəhid ailələri tərəfindən məmnunluqla qarşılanır. Prezident İlham Əliyevin Sərəncamına əsasən, Şəhidlər Xiyabanı Vahid Kompleks kimi yüksək səviyyədə yenidən quruldu və abadlaşdırıldı. 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsi istiqamətində daha bir addım metronun "20 Yanvar" stansiyasının üzərindəki dairədə Xatirə-Kompleksin yaradılması oldu. Prezident İlham Əliyevin tapşırığı ilə Bakının Yasamal rayonundakı "20 Yanvar" dairəsində

Memorial Abidə-Kompleks yaradıldı. Kompleksin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı qızılı hərflərlə həkk olunub. Bu gün xalqımız 20 Yanvar hadisələrinin 31-ci ildönümünü qeyd edir, igid övladlarının fədakarlığını məhəbbətlə xatırlayır və onların əziz xatirəsini böyük ehtiramla yad edir.

Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şəhidlər xiyabanın gələrək Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini yad etməsi və buradan Azərbaycan xalqına müraciət etməsi şəhidlərimizə olan ehtram idi. Şəhidlər xiyabanında Azərbaycan xalqına müraciət edərək "Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir!" dedi. O gün bütün şəhidlərimizin ruhu şad oldu.

Allah bütün şəhidlərimizə rəhmət eləsin!

***ZÜMRÜD BAYRAMOVA***

# Qələbəni bizə yaşadanları yaşadaq

***Ağır yaralanan qazilərimizin və şəhidlərimizin ailə üzvlərinin müraciətləri “YAŞAT” Fondu tərəfindən diqqət mərkəzində saxlanılır, onların ehtiyaclarının ödənilməsi ilə bağlı işlər davam etdirilir.***



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Fond tərəfindən bu gün daha 48 şəhid ailəsi üzvünün özlərinin müəyyən etdiyi tibbi zərurət üzrə müayinədən keçirilməsi, 3 nəfərin isə əməliyyatı təmin edilib.



Həmçinin qazilərimiz Nəsirov Kənan Füzuli oğlunun müalicəsi ilə əlaqədar yaranan əlavə xərclər, Xaliqov Seyidəkbər Vaqif oğlunun və Səmədov Elnur Eldar oğlunun məişət şəraitinin yaxşılaşdırılması istiqamətindəki müraciətləri “YAŞAT” Fondu tərəfindən təmin ediləcək.

Xatırladaq ki, “YAŞAT” Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığı təmin etmək məqsədilə “yashat.gov.az” portalı istifadəyə verilib. Həmçinin Fondun 8110 “Çağrı” mərkəzi fəaliyyət göstərir.






# “The Korea Post”: 20 Yanvarda Azərbaycan xalqının mərd övladları parlaq qəhrəmanlıq salnaməsi yaradıblar

***Koreya Respublikasının nüfuzlu “The Korea Post” qəzeti 1990-cı ildə Bakıda baş verən Yanvar hadisələrindən bəhs edən məqalə yayıb.***

AZƏRTAC xəbər verir ki, qəzetin Koreya və ingilis dili versiyalarında yerləşdirilən “Qara Yanvar” başlıqlı məqalədə azadlıq və suverenlik uğrunda mübarizəyə qalxmış Azərbaycan xalqının istəyini boğmaq üçün keçmiş sovet dövləti rəhbərliyinin əmri ilə törədilən cinayətkar əməllərdən bəhs edilir. Bildirilir ki, 1990-cı ilin yanvarın 19-dan 20-nə keçən gecə Bakıya yeridilmiş 26 min nəfərlik sovet qoşun birləşmələrinin törətdikləri qətllər zamanı uşaqlar, qadınlar, yaşlı insanlar daxil olmaqla, 147 mülki vətəndaş öldürülüb, təxminən 800 nəfər yaralanıb, bir o qədər sakin qanunsuz həbs edilib.

Müəllif Kevin Li yazır ki, Qanlı Yanvar hadisəsi Azərbaycan tarixində dönüş nöqtəsi olub. Bu qırğın Azərbaycan xalqını müstəqillik uğrunda mübarizədən çəkindirmədi. Həmin gün Azərbaycan xalqı tarixi qəhrəmanlıq ənənələrini qoruyub saxlamaq, Vətənin azadlığı və müstəqilliyi uğrunda şəhid olmaq bahasına belə ən qəddar hücumlara qarşı durmaq qabiliyyətini nümayiş etdirdi. Vətəninin azadlığını və müstəqilliyini qoruyaraq həlak olmuş Azərbaycan xalqının mərd övladları parlaq qəhrəmanlıq salnaməsi yaradıblar.

“The Korea Post” Azərbaycan xalqının həmin dövrdə azadlıq mübarizəsi ilə paralel olaraq, sovet rəhbərliyinin dəstəklədiyi qonşu Ermənistanın təcavüzü ilə də üz-üzə qaldığını yazır.

Məqalədə Azərbaycanda həmin hadisələrin qurbanlarının xatirəsinin əziz tutulduğu, hər il yanvarın 20-də ölkədə milli matəm günü kimi qeyd olunduğu bildirilib.

# İndoneziya mətbuatında 20 Yanvar faciəsinin ildönümünə həsr olunmuş məqalələr dərc edilib

**20 Yanvar faciəsinin 31-ci ildönümü ilə əlaqədar İndoneziya mətbuatında ingilis və İndoneziya dillərində məqalələr dərc olunub. AZƏRTAC xəbər verir ki, İndoneziyanın “Miraj” Xəbər Agentliyinin internet səhifəsində və “akurat.co.id” xəbər portalında 20 Yanvar faciəsi haqqında “Qara Yanvar faciəsi” və “Azərbaycan: Qara Yanvar faciəsi” sərlövhəli məqalələrdə yerli oxuculara faciənin tarixi barədə ətraflı məlumat verilib.**







Məqalələrdə bildirilir ki, 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə keçmiş Sovet İttifaqının rəhbərliyinin Azərbaycana qarşı qərəzli siyasətinə, Dağlıq Qarabağ Muxtar Vilayətinə iddia edən Ermənistanın təcavüzkar hərəkətlərinin dəstəklənməsinə etiraz olaraq ayağa qalxmış xalqımıza amansız divan tutulub. Ötən əsrin 80-ci illərinin sonlarında Ermənistan rəhbərliyinin apardığı siyasətin nəticəsi olaraq, yüz minlərlə azərbaycanlının öz ata-baba torpaqlarından didərgin salınması və Azərbaycanın ərazi bütövlüyünə qarşı aparılmış təxribatlar haqqında məlumat verilib. Xalqımızın bu təxribatlarla bağlı haqlı etirazının qarşısının alınması məqsədilə 1990-cı il yanvarın 20-nə keçən gecə sovet ordusunun mülki əhaliyə qarşı amansız divan tutması və bu qanlı rəftarın mübariz Azərbaycan xalqını müstəqilliyə gedən yoldan döndərməyə qadir olmadığı haqqında yazılıb.

147 nəfərin şəhid olduğu, təqribən yüzlərlə insanın yaralandığı bu qanlı faciə ilə bağlı ətraflı məlumatların əks olunduğu bu məqalələrdə 31 il bundan öncə baş vermiş hadisələrin “Qara Yanvar faciəsi” adlandırılmasına baxmayaraq, həmin tarixin Azərbaycan xalqının milli azadlıq uğrunda mübarizəsinin şanlı səhifələrindən biri olduğu qeyd edilib.

Məqalələrdə xüsusi vurğulanıb ki, sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından illər ötməsinə baxmayaraq, xalqımızın azadlığı, şərəfi və ləyaqəti uğrunda həlak olmuş şəhidlərimiz heç vaxt unudulmur. Hər il yanvarın 20-də Azərbaycanda Ümumxalq Hüzn Günü kimi qeyd olunur və ölkəmizin bütün bölgələrindən insanlar şəhidlərimizin əziz xatirəsini yad etmək üçün Şəhidlər xiyabanına axışırlar.

# Onlar ölümləri ilə ölümsüzlük qazandılar!

*Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar*

**Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsi olan 1990-cı ilin 20 Yanvar faciəsindən 31 il ötür. 20 Yanvar faciəsini nə qədər böyük ağrı hissi ilə xatırlasaq da, xalqımızın azadlıq uğrunda mübarizə əzmini sındırmağın mümkünsüzlüyünü göründə bundan böyük qürur hissi keçiririk. Həmin gün uzun illər imperiya əsarəti altında yaşayan xalqımız azadlığa qovuşmaq üçün canından belə keçməyə hazır olduğunu bir daha dünyaya nümayiş etdirdi. Azad, müstəqil yaşamaq, öz təbii sərvətlərinin əsl sahibinə çevrilmək tarixboyu Azərbaycan xalqının ən böyük arzusu olub.**



1987-ci ilin sonlarında yenidən ortaya atılmış qondarma Dağlıq Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyünün pozulmasına, torpaqlarımızın işğalına, Ermənistanda və Dağlıq Qarabağda yaşayan yüzminlərlə azərbaycanlının öz doğma yurdlarından qovulmasına yönəlmişdi. Keçmiş Sovet İttifaqının iki respublikası arasında başlanan bu münaqişə XIX-XX yüzilliklərdə ermənilərin Azərbaycan torpaqlarında ardıcıl məskunlaşdırılması, habelə xalqımıza qarşı məqsədyönlü şəkildə aparılmış etnik təmizləmə və soyqırımı siyasətinin növbəti mərhələsi idi. Ermənistan SSR-in respublikamıza ərazi iddialarına, radikal erməni millətçiləri tərəfindən qızışdırılan separatizmə və soydaşlarımız əleyhinə törədilən kütləvi zorakılıqlara SSRİ rəhbərliyinin bilavasitə və ya dolayısı ilə dəstək verməsi, habelə Azərbaycanın o zamankı rəhbərlərinin cinayətkar qətiyyətsizliyi və milli maraqlara zidd addımları xalqımızı respublikanın ərazi bütövlüyünün qorunması naminə ayağa qalxmağa sövq etdi. Beləliklə, respublikada geniş xalq hərəkatı yarandı və proseslərin gedişi onun tədricən milli azadlıq hərəkatına çevrilməsinə zəmin yaratdı.




20 Yanvar hadisələri Azərbaycanda demokratik proseslərə qəsd, dəqiq düşünülmüş hərbi təcavüz, respublikanın suveren hüquqlarını, ümumiyyətlə, insan hüquqlarını pozan hərəkət idi. 1990-cı ilin 19-20 yanvar tarixlərində əsasən ermənilərdən ibarət Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, hərbi dəniz donanmasının və daxili qoşunların bölmələri dinc əhaliyə qarşı görünməmiş vəhşiliklər törətdilər. Günahsız insanlar qətlə yetirildi, yaralandı, əlil oldu, itkin düşdü. Sovet ordusu qoşunlarının hərbi əməliyyatları nəticəsində Bakıda və rayonlarda 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuşdu. Hərbi qulluqçular tərəfindən 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, yandırıcı güllələrin törətdiyi yanğın nəticəsində dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdi.

Həmin vaxt Azərbaycan informasiya blokadasına alınmışdı. Dəhşətli faciədən bir az öncə Azərbaycan Televiziyasının enerji bloku partladılmışdı. Dünya ictimaiyyəti Azərbaycanda baş vermiş bu qanlı hadisədən xəbərsiz idi. Belə ağır bir vaxtda ulu öndər Heydər Əliyev Moskvada xüsusi nəzarət altında saxlanılmasına, təzyiq və təqiblərə məruz qalmasına baxmayaraq, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək, Sovet ordusunun Bakıda törətdiyi bu qanlı cinayəti kəskin pisləyən bəyanat vermişdi. Ümummilli lider Heydər Əliyev faciənin bütün günahkarlarının cəzalandırılmasını tələb etmişdi.

20 Yanvar hadisələrinə geniş mənada əsl hüquqi, siyasi qiymət vermək ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra mümkün oldu. Dahi şəxsiyyət Heydər Əliyev 20 Yanvar faciəsinin səbəblərinin, günahkarlarının aşkarlanması üçün yaradılan komissiyanın işini bərpa etməklə əsl həqiqəti üzə çıxardı, xalqla birliyini bir daha təsdiqlədi. 20 Yanvar hadisələrinin geniş miqyas almasında, kütləvi insan tələfatı ilə nəticələnməsində o dövrdə Azərbaycanda iqtidarda olanlar da günahkar idilər. Silahsız insanları qırğından çəkindirmək əvəzinə tankların qabağına yollayan AXC-Müsavat rəhbərləri xəyanətkarlıqlarını nümayiş etdirdilər.

Mərd, qorxmaz xalqımız yenilmədi, əyilmədi. Bu kimi hadisələr xalqın azad, müstəqil yaşamaq arzusunu söndürmədi, əksinə daha da alovlandırdı. Azərbaycanın 1991-ci ilin oktyabrında dövlət müstəqilliyini yenidən bərpa etməsi bunun təsdiqidir.

Müstəqilliyimizin ilk illərində yaşananlar yaddaşlardadır. Ölkəyə rəhbərlik edənlərin









# Onlar ölümləri ilə ölümsüzlük qazandılar!

*Ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar*



idarəçilik qabiliyyətlərinin yoxluğu, öz şəxsi maraqlarını dövlət maraqlarından üstün tutmaları Azərbaycanı dövlət müstəqilliyini itirmək, bir dövlət olaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Xalqın sabaha ümidi tamamilə itmişdi. Belə çətin məqamda xalq üzünü öz xilaskarına -ulu öndər Heydər Əliyevə tutdu. 1993-cü ildə ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan həmin illərin xaosundan, anarxiyasından, özbaşınalıqlarından, iqtisadi tənəzzülündən xilas oldu. AXC-Müsavat cütlüyünün bir illik hakimiyyətləri dövründə Silahlı Qüvvələrin torpaqlarımızın deyil, ayrı-ayrı dairələrin maraqlarının müdafiəçisi kimi çıxış etməsi ərazilərimizin işğalına səbəb oldu. Ümummilli Liderin düşünülmüş və məqsədyönlü siyasəti nəticəsində Azərbaycan inkişaf, tərəqqi yoluna çıxdı, ölkəmizin ətrafında yaradılan informasiya blokadası yarıldı. Azərbaycanın beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan xarici siyasəti nəticəsində dünya birliyinin fəal üzvünə çevrildi. Yeni dostlar, tərəfdaşlar qazanan Azərbaycan haqq səsini dünyanın ən nüfuzlu təşkilatlarının tribunasından beynəlxalq ictimaiyyətə çatdırdı.

Bu mühüm məqamı da xüsusi qeyd etməliyik ki, yalnız ümummilli lider Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışından sonra 1994-cü ilin 20 Yanvar hadisələrinin hüquqi müstəvidə əsl mahiyyəti açıqlandı. 1994-cü il yanvarın 12-də keçirdiyi müşavirədə ulu öndər Heydər Əliyev bu barədə deyirdi: "Xalqa təcavüz olunmuş, günahkarlar isə hələ müəyyənləşdirilməmişdir. Görünür ki, ötən yaxın illərdəki Sovetlər birliyi, respublika rəhbərliyi, məsul şəxslər öz mənafeləri naminə bu böyük faciənin əsl mahiyyətini xalqa bəyan etməmişlər".

Ulu Öndərin 20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi ilə bağlı 1994-cü il yanvarın 5-də imzaladığı Fərmanda həm də Milli Məclisə hadisəyə tam siyasi-hüquqi qiymət verməsi tövsiyə olunurdu. Bu qiymət xalqımızın müstəqillik yolunda çarpışmasının dolğun mənzərəsini əks etdirməli idi. 1994-cü il mart ayının 29-da ölkə parlamenti "1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında" qərar qəbul etdi. Beləliklə də 20 Yanvar faciəsi məhz Heydər Əliyevin prinsipial və ardıcıl mübarizəsindən sonra öz hüquqi-siyasi qiymətini aldı.

Ulu öndər Heydər Əliyev 20 Yanvar şəhidlərinin xatirəsinin əbədiləşdirilməsinə, onların ailələrinə dövlət qayğısının gücləndirilməsinə hər zaman böyük diqqətlə yanaşırdı. Ümummilli Lider hər il yanvarın 20-də Şəhidlər xiyabanına gələrək ziyarət edir, şəhid ailələri ilə görüşür, onların qayğıları ilə maraqlanırdı. Bu gün Şəhidlər xiyabanında ucalan "Əbədi məşəl" abidə kompleksi də məhz Heydər Əliyevin təşəbbüsü ilə şəhidlərin xatirəsinə ehtiram əlaməti olaraq inşa olunub. Ulu öndər Heydər Əliyevin 2000-ci il yanvarın 17-də imzaladığı Fərmanla isə 1990-cı ilin faciəli yanvar günlərində şəhid olmuş oğul və qızlarımıza "20 Yanvar şəhidi" fəxri adı verilib. Onlar ölümləri ilə ölümsüzlük qazandılar.

Son 17 ildə Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizin digər sahələr kimi xarici siyasət uğurlarının da miqyasını genişləndirdi, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün möhkəm hüquqi baza yaradıldı. 1993-cü ildə qəbul olunan BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin ardınca bir sıra dövlətlərin və beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələrdə Azərbaycanın mövqeyi dəstəkləndi. Təbii ki, siyasi müstəqilliyin möhkəmlənməsində iqtisadi müstəqillik əsas rol oynayır ki, ulu öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyası Azərbaycanın qarşısında bu imkanları yaratdı. Bu gün böyük fəxr və inam hissi ilə qeyd edirik ki, Azərbaycan öz inkişaf modeli ilə digər ölkələrə örnəkdir. Azərbaycan dünyanın 10 ən islahatçı ölkəsi sırasında qərarlaşıb. Təbii ki, bu kimi davamlı uğurlarımız müstəqilliyimizin daimi, dönməz və əbədi olmasını şərtləndirən amillər sırasındandır.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev şəhidlərin adının uca tutulmasına, onların ailələrinin sosial məsələlərinin yoluna qoyulmasına xüsusi diqqət göstərir, hər il yanvarın 20-də Şəhidlər xiyabanını ziyarət edərək "Əbədi məşəl" abidə kompleksinin önünə əklil qoyur. Dövlətimizin başçısı İlham Əliyev bildirir ki, ən ağır sınaqlara sinə gərmək əzmini bütün dünyaya nümayiş etdirən Azərbaycan övladları 1990-cı il yanvarın 20-də xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazdılar. Həmin gün respublikada haqq-ədalətin bərqərar edilməsi tələbləri ilə çıxış edən Azərbaycan xalqının inam və iradəsini qırmaq, milli mənliyini alçaltmaq məqsədilə totalitar sovet rejiminin həyata keçirdiyi terror aktı nəticəsində bəşər tarixində insanlığa qarşı törədilmiş ən ağır cinayətlərdən biri baş verdi. Yüzlərlə günahsız insan yaralandı və qətlə yetirildi.

Prezident İlham Əliyev 1990-cı ilin yanvarında şəhid olmuş oğul və qızlarımızın xatirəsinin əbədiləşdirilməsi, adlarının uca tutulması, onların ailələrinin, övladlarının sosial müdafiəsinin gücləndirilməsi üçün mühüm qərarlar vermişdir.

Qeyd etdiyimiz kimi, son 17 ilin uğurları yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllini şərtləndirdi. 44 gün davam edən İkinci Qarabağ müharibəsi Azərbaycanın ədalətli mövqeyini bir daha dünyaya bəyan etdi. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti, Azərbaycan Ordusunun gücü, qüdrəti sayəsində işğala son qoyuldu, ərazi bütövlüyümüz bərpa edildi, regionda yeni reallıqlar yaradıldı, dünyanın xarici siyasəti yenidən formalaşdı. Azərbaycan ordusu 30 ilə yaxın müddətdə dünya dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatlarının bərpa edə bilmədiyi ədaləti bərpa etdi, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini icra etdi. İşğal altında olan torpaqlarımızı şəhidlərimizin qanı, canı bahasına işğaldan azad etdik. Azərbaycanın siyasi Qələbəsinin, Ermənistanın kapitulyasiyasının təsdiqi olan 10 noyabr üçtərəfli razılaşmadan sonra ilk olaraq 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşündə " Biz bu müharibəni şəhidlərimizin canı-qanı bahasına, hərbçilərimizin rəşadəti hesabına, dövlətimizin siyasəti hesabına qazanmışıq. Mən xahiş edirəm ki, Vətən müharibəsində şəhid olmuş bizim bütün bacı-qardaşlarımızın xatirəsini yad edək, bir dəqiqə sükutla yad edək" söyləyən dövlətimizin başçısı İlham Əliyev bildirmişdir ki, ona görə müharibə başa çatandan dərhal sonra gəlmişəm ki, sizə öz hörmətimi ifadə edim: "Sizin valideynlərinizə öz təşəkkürümü bildirim ki, dövlət üçün belə qəhrəman övladlar yetişdiriblər. Gəlmişəm ki, sizə şəxsən öz təşəkkürümü bildirim, sizi təbrik edim. Mənim birinci təbrik etdiyim insanlar sizsiniz və sizin simanızda bizim bütün qəhrəman döyüşçülərimizdir. Gəlmişəm deyim ki, mən hər zaman sizinlə bir yerdə olacağam. Mənə arxalana bilərsiniz. Bizim qəhrəman döyüşçülərimiz gələcək həyatda da daim mənim nəzarətim altında olacaqlar. Bir daha sizi təbik edirəm, tezliklə sağalın, adi həyata qayıdın. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

1990-cı ilin 19-20 yanvar tarixlərində Azərbaycan xalqı göstərdiyi qətiyyətlə nümayiş etdirdi ki, heç bir qüvvə bizim milli azadlıq uğrunda mübarizə əzmimizi qıra bilməz. 44 günlük müharibə bir daha xalqımızın yenilməz, məğrur olduğunu dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı cənab İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşərək Qələbəni qazandı.

Şəhidlərimizin xatirəsi xalqımız tərəfindən daim əziz tutulur, həmişə qəlbimizdə yaşayacaq. Qəhrəman Vətən övladlarının mübarizə yolu gələcək nəsillər üçün əsl örnəkdir.

***Yeganə Əliyeva***









# "Ermənilərin vandallıqları nəticəsində bu abidələrin bir çoxu zərər görüb"



"Tarixi-mədəni, tarixi-dini abidələrin əsas funksiyalarından biri xalqın ictimai yaddaşını qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdir". Bunu SİA-ya açıqlamasında Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov deyib. İcraçı direktorun sözlərinə görə, zəngin tarixi irsimizin mühüm tərkib hissəsi olan Qarabağ irsi özünəməxsusluğu ilə seçilir: "Uzun illər işğal altında qalan bu abidələrimiz Müzəffər Ordumuzun tutarlı və unudulmaz zərbəsi ilə yenidən öz doğma və əbədi sahibinə qayıtdı. İşğal altında olarkən ermənilərin törətdiyi vandallıqlar nəticəsində bu abidələrin bir çoxu zərər görüb.

Qarabağımızın və azad edilən digər rayonlarımızın maddi bərpası ilə yanaşı, mənəvi bərpası da son dərəcə vacibdir. Ali Baş Komandanımızın azad edilmiş torpaqlarımıza səfərləri zamanı ilk növbədə bu abidələrə getməsi və nitqlərini adətən onların qarşısında söyləməsi, regionun yenidən dirçəldilməsində tarixi mirasımızın bərpasına xüsusi diqqət ayrılacağını göstərir. Son iki aya nəzər salsaq görərik ki, dövlət başçısının sərəncamları, tapşırıqları Qarabağımızda maddi olduğu qədər mənəvi irsimizin bərpası və dirçəldilməsi ilə bağlıdır. Çünki mədəniyyət sadəcə maddi elementlərlə bağlı məsələ deyil, o, həm də mənəvi elementləri özündə ehtiva edir. Doğma Qarabağımızın yenidən dirçəlişində maddi və mənəvi həmahəngliyin qorunacağı şübhəsizdir".

# Tengiz Txilava: Heç bir sağlam qüvvə ermənilərin yalan məlumatlarına inanmır

**ABŞ-da təsis olunmuş və dünyanın bir sıra ölkələrində fəaliyyət göstərən Çoxşaxəli Diplomatiya İnstitutunun Gürcüstandakı filialının "Facebook" səhifəsində "Artsax beynəlxalq həmrəyliyi" adlı tədbirin keçirilməsi barədə elan gürcü siyasətçilərin də etirazına səbəb olub.**



Gürcü politoloq Tengiz Txilava AZƏRTAC-a müsahibəsində deyib: "Təəssüf ki, biz yenə də Ermənistan tərəfinin xalqlarımız arasındakı münasibətlərə zərər vurmağa çalışdığını görürük. Əlləri hər yerdən üzülmüş, çarəsiz qalan ermənilər artıq "böyük işlər" görə bilmirlər. Ona görə də kiçik məsələlərə əl atırlar, bulanıq suda balıq tutmağa çalışırlar".

T.Txilava bildirib ki, tədbirin guya Qarabağ sakinlərinə yardım və ya xeyriyyə adı altında keçirilməsi kimi iddialar da əsassızdır. Hamı bunun həqiqətdən uzaq olduğunu yaxşı başa düşür. Heç kimin xeyriyyəçiliyə iradı yoxdur. Amma konsertin Azərbaycanda matəm günü olan 20 yanvar tarixinə planlaşdırılması açıq şəkildə təxribat məqsədi daşıyır. Konsertdə gürcü ifaçıların da iştirak edəcəyi barədə məlumatın verilməsinin həqiqəti əks etdirmədiyini vurğulayan politoloq deyib: "Mən həmin müğənnilərlə söhbət etdim. Onlar bu barədə xəbərsizdirlər və konsert haqqında heç bir məlumatlarının olmadığını söylədilər. Bu sənətçilərin klipləri disklərdə olduğu kimi, sosial şəbəkələrdə də mövcuddur. Amma bu sənətçilərin mahnıları konsertdə səslondirilməyəcək".

O bildirib ki, bu dəst-xətt hamıya məlumdur və bu fakt bir daha ermənilərin məkrli siyasətini təsdiq edir. Amma heç bir sağlam qüvvə erməni təxribatlarını dəstəkləmir və onların yalan məlumatlarına inanmır.

# "Paşinyan hakimiyyəti dəyişilə bilər amma..."

**"44 günlük Vətən müharibəsində düşmənə endirdiyimiz zərbə o qədər güclü olmuşdur ki, bu ölkənin özünə gəlməsi və normal həyat ritminə qayıtması üçün 10 illər lazım olacaqdır. Əslində müharibədə Azərbaycana məğlub olan Paşinyanın yox, Köçəryan və Sarkisyanın ordusu olub. Çünki, Ermənistanda Paşinyanın hakimiyətinin göz açıb erməni cəmiyyətini köçəryanlar və sarkisyanlardan azad etmək imkanı da olmayıb". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.**



Millət vəkilinin sözlərinə görə, Köçəryan və Sarkisyan Azərbaycan ərazilərində necə qanlı faciələr, vandallıq və dağıdıcılıqla məşğul olubsa, öz erməni əhalisinə qarşı da talançılıq və cinayətkarlıq edib: "O cümlədən, erməni ordusunun tuşunkasından başlanmış silahına qədər oğurluq edərək öz sərvətlərini artırıb. Ona görə də Vətən müharibəsində ermənilərin məğlubiyyətinin əsas səbəbkarları Köçəryan, Sarkisyan və Paşinyan üçlüyü olub. Köçəryan və Sarkisyan öz tərəfdarlarını yığaraq ordusunun müharibədəki uğursuzluğunu Paşinyanın üzərinə atmaqla yenidən hakimiyyətə qayıtmaq niyyətindədir. Paşinyan isə hakimiyyətin zorla dəyişdirilməsinə cəhd maddəsi ilə Köçəryana yenidən məhkəmə qurараq onu zərərsizləşdirmək istəyir. Həm də müxalifət müharibədə minlərlə gəncin itirilməsindən yaranmış ruh düşkünlüyündən istifadə edərək Paşinyan rejimini devirmək, ölkədə yeni parlament seçkilərin keçirilməsinə nail olmağına çalışır".

Deputat əlavə edib ki, ümumilikdə, Ermənistanda ölkəni məhvə doğru aparan siyasi etirazlar dalğası dərinləşməkdədir: "Hesab edirəm ki, bu etirazçılar dalğası Ermənistanı xaosa sürükləyəcək və yenidən parlament seçkilərinin keçirilməsini aktuallaşdıracaqdır. Onu qeyd edə bilərəm ki, Paşinyan hakimiyyəti dəyişilə bilər, amma Ermənistandakı anarxiya və özbaşınalıq davam edəcəkdir. Ermənistanın ölkədə sabitliyə nail olunmasının yeganə yolu tez bir zamanda Azərbaycanla səmimi qonşuluq münasibətlərin qurulmasından gedir. Əgər erməni hakimiyyəti tez bir zamanda buna nail olarsa, ölkəsində siyasi sabitlik və gələcəyinə ümidlər yaranar".

*Ceyhun Rasimoğlu*



RÖVŞƏN
rovsen.rasulov@mail.ru

# YAZDIM!

**Bir jurnalist olaraq, barəsində söhbət açacağım mövzu haqqında yazmaq etiraf edim ki, çətindir, ağırdır. Amma nə edək, zaman və çağırışlar dəyişir, həqiqətlər qeyri-həqiqətləri üstələyir, vaxtilə az-az yazılan, qabardılan problemlər indi siyasi baxışından asılı olmayan, xüsusilə də iqtidaryönlü (!) media nümayəndələri, jurnalistlər tərəfindən daha tez-tez cəmiyyətin diqqətinə çatdırılır. İlk növbədə, ölkədə ictimai nəzarət mexanizmi gücləndiriləndən və dövlət səviyyəsində dəstəklənəndən sonra. Bu mexanizmin işə salınması uğurlu gələcəyimizə olan yola kifayət qədər işıq saçmağa başlayıb.**

Dövlət hər zaman mətbuatın inkişafı üçün əlindən gələni edib və edir də, buna kimsənin şübhəsi yoxdur, ola da bilməz. Lakin birini deyib, o birinə keçməklə xatırlatmaq yerinə düşərdi ki, qəzet oxuyan, sayt izləyən xalqımız arasında belə bir deyim də var: qanunlarımız ən gözəl, ən münasib, vətəndaşların tələblərinə cavab verən mütərəqqi qanunlardır, sadəcə, həmin qanunlarya ya işlək deyil, ya da yerlərdəki məmurlar bu qanunların icra olunmasını müxtəlif vasitələrlə qarşısını alırlar.

Artıq bir neçə ildir ki, ölkədə bilavasitə ölkə başçısının qətiyyətli nəzarəti, tapşırığı və qərarları ilə çoxsaylı dövlət strukturlarında islahatlar aparılır, həmçinin kadr islahatları həyata keçirilir, müxtəlif istiqamətləri əhatə edən idarəçilik fəaliyyətləri dəyişdirilir və nəhayət, həmin reallıqlar media sahəsinə də gəlib-çatdı. Ona görə ki, gözləməkdən bir çox həmkarlarımızın gözlərinin kökü saralmışdı.

### Artıq ölkədə MEDİA (Medianın İnkişafı Agentliyi) təsis olundu və əvvəlki KİVDF-nin bazasında, bəli məhz bazasında, fəaliyyətində deyil...

Bu sektorun şəffaf və jurnalistlərin maraqlarına cavab verən struktur olaraq işlək bir quruma çevriləcəyinə inanmaq, dəstək göstərmək isə haqqımız və istəyimizdir. Çünki KİVDF-nin əvvəlki rəhbərliyi dövründə də bizlər çox inandıq, ümid etdik, dəstəklədik və arzuladıq ki, birbaşa dövlətin göstərdiyi etimaddan hər bir jurnalist yararlanacaq. Amma təəssüf ki, belə yararlanmaları barmaqla saymaq olar. Niyə və necəsi isə bu cürdür: götürək jurnlistlərin sosial-məişət həyatlarının yaxşılaşdırılması üçün birbaşa ölkə rəhbərliyinin tapşırığı əsasında tikilərək istifadələrinə verilmiş binalardakı mənzilləri və sonradan jurnalistlərin hazırkı dövrə qədər üzləşdikləri məişət və yaşam problemlərini. Halbuki atılan bu böyük addımın dünyanın heç bir ölkəsində reallaşdırılmamasının özü bizləri çox qürurlandırdı. Mənzillərə ehtiyacı olan (!) jurnalistlərin dövlət tərəfindən mükafatlandırılmaları, hətta bu sevincin tükənməzliyini ifadə etməsinə belə çətinlik yaratdı. Daha doğrusu, mənzillə mükafatlandırılmanın hədsiz sevinc hissi onu cümlə ilə ifadə etməyə sözün əsl mənasında imkan vermirdi. Nə qədər güclü qələm ustası olsan belə. Sevinc, bayram əhval-ruhiyyəsi, əməyə verilən qiymət və s. Fəqət, bu hisslər çox az müddət çəkdi, sən demə, qarşıda görəcəklərimiz də varmış...

Nələr gördük? Ya da nələr görmədik ki? Gördük ki, mənzillər arasındakı divar boşluqları o qədər nazik və qəlibsizdir ki, yan divar qonşusu, üst və alt qonşuları asqıranda "sağlam ol həmkar!" desək, dərhal "çox sağ ol, qonşu!" cavabını rahatca eşidərsən. Şahidi oluq ki, "Avropa istehsallı" qapılarının "keyfiyyətli" qulpları mənzil sahiblərinin əllərində şaqqa-şuruqla qırılmaları üçün sanki bəhsə-bəhsə giriblərmiş. Bəlli oldu ki, sanitar qovşaqlardakı "tapançalar", su kranlarının başlıqları, borular və s. heç də deyildiyi kimi, yüksək keyfiyyətli məhsullar deyilmiş, sadəcə Çin emalatxanalarında (zavod və fabriklərində yox) "əldəqayrılan" oyuncaqlarmış, küləkli havalarda çöl qapıları səhərə qədər hava buraxan aralıqlardından bizə fit konsertlər verəcək, ümumi çöl eyvanlarının qapıları isə matəm marşlarında vurulan təbillərtək gum-gum gumbuldayıb, binanı lərzəyə gətirəcək. Üstəlik kombi sistemi, kafellər, metlaxlar, divar kağızları, elektrik sistemləri, ümumi və fərdi işıqlandırma yox səviyyəsindəymiş. Mühafizə, mağaza, aptek təminatı, eləcə də digər məsələlər sadəcə bir neçə müddətlik vədlər imiş, sonrası isə bəllidir...

Bütün bunlar KİVDF-nin əvvəlki rəhbərliyinə bu barədə deyiləndə isə cavab belə olurdu: gedin evpullarını (kommunal xərcləri 50 qəpikdən!) ödəyin! İnsafən, pulları ödəyənlər ödəyirdi, ödəyə bilməyənlər də birtəhər çullarını sudan çıxarmağa çalışırdı, amma ortadakı problemlərin heç biri həll olunmurdu.

Bəli, haqlısınız, bəs müsabiqələrdəki haqsız qərarlar, özbaşınalıqlar, qohumbazlıqlar və s. bazlıqlar? Bəs jurnalistlərin pənah qapısı olaraq KİVDF-yə üz tutmaları və oradan üzüqara geri göndərilmələri? Bəs...

Belə "bəs"lər çoxdur, lap çox, öz də tükənməz qədər. Amma necə deyərlər, öz dediyini-özün eşidirdin. Bax onda haqlı olaraq növbəti və bu dəfə şappıltılı suallar edilirdi ki, əcəba yığılan az-çox vəsaitlər hara gedir, kimə gedir və necə gedir?

Artıq bu sualların cavabları yavaş-yavaş verilməkdədir və günahları olanlar da söz yox ki, əlahəzrət qanun qarşısında cavab verməli olacaqlar. Ancaq bütün bunlar olmaya da bilərdi və hər şey öz yolunda da davam edərdi, kimsə incik qalmazdı, kimsə üzləşdiyi haqsızlığa görə əslində haqlı olduğunu sübuta yetirmək üçün özünə əziyyət verməzdi. Sadəcə, göstərilən etimadı doğruldaraq, əməli və şəffaf fəaliyyətlə bunların heç biri olmazdı.

### Demək ki, dövlətin göstərdiyi etimadı doğrultmayanlar indi özlərini qanun qarşısında görməli olacaqlar və görürlər də...

Sözümün canı isə budur ki, artıq bu dəfə hər şey tamamilə başqa cür olacaq. İndi biz inamlı şəkildə ümid edirik ki, yuxarıdakı problemlər yavaş-yavaş aradan qalxacaq, jurnalist həm də gerçək jurnalist olaraq tanınacaq, hər gələn cibinə vəsiqə qoyub, bu adı, bu peşəni korlaya bilməyəcək, jurnalistika sahəsinə kənardan "vüqarlı" görünən təsadüfi adamlar, ümumiyyətlə, yaxın dayana bilməyəcəklər. Biz buna nəinki ümid edirik, həm də inanırıq, üstəlik dəstək də göstəririk, göstərəcəyik də. Bu baxımdan, MEDİA-ya isə fəaliyyətində uğurlar, uğurlar və yenə də uğurlar arzu edirik. Əl-ələ verib çalışmaq ən gözəl təşəbbüsdür, aha, düz buraya yazdım!

# Dövlətimiz və millətimiz 20 Yanvar faciəsinin qurbanlarının xatirəsini daim uca tutur



*Milli Məclisin deputatı, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlının yap. org.az-a müsahibəsi*

***- Musa müəllim, 20 Yanvar faicəsinin 31-ci ildönümü tamam olur. 20 Yanvar hadisəsinin tariximizdəki yeri və rolu haqqında fikirlərinizi bilmək istərdik...***

- 20 Yanvar hadisəsinin tariximizdəki yeri və rolunu dərindən bilməkdən ötrü ilk növbədə ona gətirən prosesləri öyrənmək və təhlil etmək lazımdır. Məlum olduğu kimi, Qarabağ bölgəsinin heç bir zaman Ermənistan tərkibində və erməni kütləsinin təsiri altında olmamasına baxmayaraq, Ermənistan SSR onu ələ keçirmək üçün müxtəlif zamanlarda əsassız iddialar irəli sürüb. 1985-ci ilin martında M.S.Qorbaçov SSRİ rəhbərliyinə gətirildikdən sonra bu iddialar daha da artdı. Ermənilər Dağlıq Qarabağ Muxtar Vilayətini ələ keçirmək məqsədlərinə çatmaq üçün ilk növbədə Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyevin üzərinə total böhtan dolu hücuma keçdilər. Heydər Əliyev Sov.İKP MK-nın 1987-ci il oktyabrın 21-də keçirilən plenumunda vəzifəsindən azad edildikdən bir neçə gün sonra M.Qorbaçovun iqtisadiyyat məsələləri üzrə müşaviri Abel Aqanbekyanın Parisdə "İnterkontinental" oteldə yerli erməni nümayəndələri qarşısında etdiyi çıxışında Azərbaycanın Dağlıq Qarabağ regionunun guya "əlaqəsini" nəzərə alaraq Ermənistana birləşdirilməsi barədə sovet rəhbərinin razılığını aldığını bildirdi. Noyabrın 18-də "Humanite" qəzetində və tezliklə digər xarici ölkələrdəki erməni mətbuatı və radiostansiyalarının başlıca mövzusuna çevrilən bu bəyanatın ardınca Ermənistanın əsassız ərazi iddiaları artdı. Erməni nümayəndələri 1987-ci ilin noyabrında Moskvaya gedərək mərkəzi orqanlar qarşısında əsassız tələblərini irəli sürdülər. Ermənistandan nümayəndələr 1988-ci ilin fevralında da Moskvaya səfər edərək sovet orqanları qarşısında tələblərini irəli sürdülər. Bundan az sonra həmin ilin fevralın 11-də Xankəndidə (Stepanakert) mitinqlər və mövcud konstitusiya quruluşu əleyhinə fəaliyyətlər başladı. Ermənistandan gəlib Azərbaycanın Dağlıq Qarabağ regionunda təbliğat aparan "Qarabağ" və "Krunk" təşkilatlarının fəalları iki xalq arasında düşmənçilik toxumları səpir, separatçılığı qızışdırırdılar.

Azərbaycan cəmiyyətinin doğurmadığı Dağlıq Qarabağ münaqişəsi Ermənistanın Azərbaycanın daxili işlərinə bilavasitə kobud müdaxiləsinin nəticəsi idi. Belə ki, 1980-ci illərin ortalarından etibarən Ermənistanda bir çox müəssisə və kooperativlər yarımleqal şəraitdə odlu silah, partlayıcı maddələr istehsal edərək Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə göndərir, sovet Ermənistanı rəhbərlərinin himayəsi altında qanunsuz silahlı birləşmələri silah və sursatla, rabitə vasitələri, o cümlədən, nəqliyyatla təmin edirdilər.

Münaqişənin başlanmasına SSRİ-də gedən bir sıra daxili amillər təsir etdi. Ətrafındakı erməni xadimlərinin təsiri altında olan M.S.Qorbaçov yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətini həyata keçirə bilmədiyi üçün yerlərdə günahkarlar axtarmağa və onları cəzalandırmağa cəhdlər edirdi. SSRİ-nin dağılmasında maraqlı olan bəzi dövlətlər də milli münasibətləri qızışdırırdılar. Sovet İttifaqını demokratik və güclü bir dövlət kimi görməkdə maraqlı olmayan həmin ölkələr onu daha tez dağıtmağın yolunun ən zəif həlqə olan milli münasibətlərin kəskinləşdirilməsindən keçdiyini gözəl bilirdilər.

Mərkəzi hökumətin azərbaycanlıların etirazlarına məhəl qoymaması və hüquqlarını qorumaması nəticəsində Azərbaycanda vəziyyət daha da pisləşdi. Uğursuzluqlar daxili siyasi sabitsizliyə və böhrana gətirib çıxardı. Bakıda mitinqlər ara vermirdi. Əhali Ermənistanın təcavüzünü dayandırmağı, Dağlıq Qarabağ regionunda vəziyyəti normallaşdırmağı, Ermənistandan qovulan və küçələrdə qalan adamların problemlərinin həllini tələb edirdi. Xalqdan ayrı düşümüş Azərbaycan hakimiyyəti isə bunları yerinə yetirməyə qadir deyildi. Hakimiyyət orqanları fəaliyyətsiz idilər. Respublikanın paytaxtında vəziyyət nəzarətdən çıxırdı. Azərbaycanın bölgələrində də vəziyyət gərginləşmişdi. Bir neçə rayonda Azərbaycan Xalq Cəbhəsinin fəalları hakimiyyət orqanlarını ələ keçirdilər. Yanvarın 11-12-də Lənkəranda mitinqçilər Azərbaycan KP şəhər partiya komitəsinin və yerli radiostansiyanın binalarını tutdular. Sovet qoşun hissələrinin Bakı şəhərinə girməsinə haqq qazandırmaq üçün sovet xüsusi xidmət orqanları və erməni kilsəsi təxribat törədək yanvarın 13-də Bakıda yaşayan bəzi ermənilərə qarşı zorakılıq hərəkətlərini təşkil etdi. Mötəbər arxiv mənbələrinin birindən aydın olur ki, Bakıda ermənilərə qarşı zorakılığı erməni kilsə xadimləri təşkil ediblər.

Yanvarın 17-dən etibarən Azərbaycana əlavə sovet hərbi hissələri gətirilməyə başlandı. Azərbaycana yeridilən sovet əsgərlərinin sayı artıq yanvarın 19-da 24 min nəfərə çatmışdı. Azərbaycan xalqı sovet qoşun hissələrinin qarşısında əliyalın qalmışdı.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycan televiziyasının enerji bloku partladıldı. Enerji blokunun partladılmasında başlıca məqsəd ordu hissələrinin Bakıda törətdikləri qanlı hadisələrdən əhalinin xəbər tuta bilməsinin və televiziya ilə müraciət edilməsinin qarşısını almaq idi. Nəticədə əhali baş verən hadisələr barədə heç bir informasiya ala bilmədi. M.Qorbaçov Bakıda fövqəladə vəziyyət elan edilməsi barədə dekret imzaladı. Elə həmin gecə M.Qorbaçov başda olmaqla sovet rəhbərliyi əsasən Rostov, Krasnodar və Stavropoldan gətirilmiş ehtiyat əsgər və zabitlərdən komplektləşdirilmiş ordu hissələrinə etirazları yatırmaq üçün Bakıda dinc əhaliyə qarşı silah işlətmək əmrini verdi. Ordunun Bakıda və Azərbaycanın digər ərazilərində görünməmiş vəhşiliyi nəticəsində dəhşətli qətliam baş verdi. 130 nəfər dinc azərbaycanlı öldürüldü, 700 nəfər yaralandı, 12 nəfər itkin düşdü.

20 yanvar hadisəsi nəticəsində Əbdürrəhman Vəzirov respublikadan qaçdı. Azərbaycan Xalq Cəbhəsinin liderləri də qaçıb gizləndilər. Xalq başsız qaldı. Bu zaman sərt nəzarət altında yaşayan böyük öndər və siyasi xadim Heydər Əliyev, oğlu İlham Əliyev və digər ailə üzvləri Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gəlib keçirdiyi mətbuat konfransında bəyanat verdi, baş verən hadisəni hüquqa zidd, demokratiyaya yad və humanizm prinsiplərinin əleyhinə olan kimi qiymətləndirdi. Bu cəsur hərəkəti ilə Heydər Əliyev ən çətin anda təkcə xalqının yanında olmadı, eyni zamanda informasiya blokadasının yarılmasında, Azərbaycanda baş verən qanlı hadisələrin dünyaya çatdırılmasında müstəsna rol oynadı.20 yanvar hadisəsi sovet hakimiyyətinin vətəndaşlarına qarşı törətdiyi ağır cinayət idi.

***-Sovet imperiyasının çökməsində bu hadisə, Azərbaycan xalqının mübarizliyi nə dərəcədə rol oynadı?***

- 20 Yanvar SSRİ-nin sonunun başlanğıcı idi. Bu, SSRİ siyasi sisteminin böhranını və M.Qorbaçovun yenidənqurma, aşkarlıq və demokratikləşdirmə siyasətinin iflasını göstərdi.

Məlum olduğu kimi, planlı sosialist təsərrüfatına əsaslanan sovet iqtisadiyyatı zəncir kimi bir-biri ilə sıx bağlı idi. Həlak olanların xatirəsinə ehtiram olaraq Azərbaycanda fabrik və zavodların 40 gün işləməməsi sovet iqtisadiyyatının dağılmasına ciddi təsir etdi. SSRİ-nin iqtisadi əsasları sarsıldı. Sovet dövləti güc baxımından ordu, polis və xüsusi xidmət orqanları üzərində dayanırdı. Ölkəni xarici hərbi müdaxilədən qorumalı olan ordunun dinc ölkə vətəndaşlarını vəhşicəsinə öldürməsi nəticəsində orduya olan inam sarsıldı.

Sovet İttifaqı ideoloji baxımdan Kommunist Partiyası ilə ayaqda dayanırdı. Partiya rəhbərliyinin dinc əhalinin güllənbaran edilməsinə əmr verməsi partiyanı və ideologiyanı tamamilə gözdən düşürdü. Kommunistlər partiya biletlərindən imtina etməklə SSRİ-nin ideoloji əsasını sarsıtdılar.

20 yanvar hadisəsi Azərbaycan xalqının həyatında bir dönüş mərhələsi oldu. Xalq bundan sonra "Mərkəz" ilə yolunun bir olmayacağına, keçmişə qayıdışın mümkünsüzlüyünə bir daha əmin oldu, hakimiyyətə də etimad bəsləmədi və gələcək həyatını qəti olaraq dövlət müstəqilliyində gördü. Heç əbəs deyildir ki, 1990-cı il noyabrın 17-də ağsaqqal deputat kimi Heydər Əliyevin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyasının qərarına əsasən Naxçıvan MSSR adından "Sovet Sosialist" ifadələri çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırıldı. Azərbaycan Cümhuriyyətinin üçrəngli bayrağı rəsmi olaraq qəbul edildi. Sessiya Azərbaycan SSR Ali Sovetinə müraciət edərək "Sovet Sosialist" ifadələrindən imtina etməyi, üçrəngli bayrağı dövlət bayrağı olaraq qəbul etməyi təklif etdi. Naxçıvanda sovet sistemindən imtina olunması geniş əks-səda doğurdu. Naxçıvan müstəqil Azərbaycan dövlətçiliyinin onurğa sütunu oldu.

1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Azərbaycan Respublikası adı rəsmi olaraq qəbul edildi. SSRİ-nin saxlanılıb-saxlanılmaması barədə martın 17-də ölkədə keçirilən referendum Naxçıvan Muxtar Respublikasında boykot olundu.

Dünyada və ölkədə baş verən obyektiv proseslərin təsiri altında SSRİ-nin dağılması sürətləndi. 1991-ci il avqustun 19-da M.Qorbaçovun devrilməsi məqsədi ilə edilən çevriliş cəhdi iflasa uğradıqdan sonra ölkənin dağılmasını sürətləndi. Azərbaycan 1991-ci il avqustun 30-da dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul etdi. Bir müddət sonra hələ SSRİ mövcud olduğu bir şəraitdə -oktyabrın 18-də isə Azərbaycanın dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya aktı qəbul edildi.

***- Sizcə, 20 Yanvar faciəsinin elmi-tarixi cəhətdən araşdırılması hansı səviyyədədir?***

- 20 Yanvar hadisəsinə həsr edilmiş çoxlu kitablar və kitabçalar vardır. Ancaq bu, kifayət deyildir. Çünki tarixi tədqiqatlarda heç bir vaxt nöqtə qoyulmur. Zaman gələcək sovet dövrünün ən məxfi arxiv sənədlərindən istifadə etmək mümkün olacaq, o zaman bir çox həqiqətlər üzə çıxacaq və daha yaxşı əsərlər yazılacaq. 20 Yanvar hadisəsinə dair mətnlər tarix dərsliklərində verilib. Lakin bu mətnlər əsasən matəm ruhundadır. Məncə, 20 Yanvar hadisəsinin daha çox qəhrəmanlıq tərəfi geniş təbliğ edilməlidir. Çünki 20 yanvar şəhidlərinin arzuları, uğrunda həyatlarını fəda etdikləri istəkləri bu gün həyata keçib. Ölkəmiz müstəqildir, Ali Baş Komandanımız, cənab Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında 44 günlük müharibədə Azərbaycan mədəniyyətinin beşiyi olan Şuşa və digər ərazilərimiz işğaldan azad edilib.

***- 20 Yanvar faciəsinin qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, onların ailələrinə olan dövlət qayğısını necə qiymətləndirirsiniz?***

- Dövlətimiz və millətimiz 20 Yanvar faciəsinin qurbanlarının xatirəsini daim uca tutur. Yanvar şəhidləri 1918-ci ilin mart soyqırımı qurbanlarının dəfn edildiyi yerdə torpağa tapşırılıb. İlk dəfə məhz Ulu Öndər Heydər Əliyev hələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi "1990-cı il yanvar ayında törədilmiş Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" işləyib hazırladığı və qəbul edilən qərar layihəsində qanlı yanvar hadisələrinə düzgün siyasi qiymət verilib, bu hadisədə SSRİ rəhbərliyi ilə yanaşı, respublika rəhbərliyinin də böyük günahı olduğu göstərilib və onların adlarının bir-bir açıqlanaraq məsuliyyətə cəlb edilmələri tələb olunub.

Ulu Öndər ikinci dəfə hakimiyyətə gəldikdən sonra da bu məsələni daim diqqətdə saxladı. Belə ki, Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev "20 Yanvar faciəsinin 4-cü ildönümünün keçirilməsi haqqında" 1994-cü il 5 yanvar tarixli Fərmanında Azərbaycan Respublikasının Milli Məclisinə qanlı yanvar hadisələrinə həsr edilmiş xüsusi sessiyanın keçirilməsi məsələsinə baxmağı tövsiyə etdi. Milli Məclisin 1994-cü il martın 29-da qəbul etdiyi qərarda 20 Yanvar faciəsinin günahkarları konkret qeyd olundu və bu qanlı aksiya Azərbaycanda milli azadlıq hərəkatını boğmaq, xalqın inamını, iradəsini qırmaq üçün totalitar kommunist rejimi tərəfindən törədilmiş hərbi təcavüz və cinayət kimi qiymətləndirildi. 20 Yanvar Ümumxalq Hüzn Günü elan edildi.

Azərbaycan xalqı hər il 20 Yanvar şəhidlərinin xatirəsini dərin ehtiramla yad edir. Cənab Prezidentimiz İlham Əliyev hər il Şəhidlər Xiyabanına gedərək şəhidlərin xatirəsini yad edir və abidəyə əklil qoyur.

Anım günündə Azərbaycanda və dünyanın müxtəlif ölkələrində silsilə mərasimlər, sərgilər, konfranslar keçirilir, bu qanlı qırğın, eləcə də Azərbaycan xalqının müstəqillik əzminin sarsılmazlığı bütün dünyaya çatdırılır. Tarixi həqiqətlərin yayılmasında Mehriban xanım Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondu müstəsna rol oynayır.

20 Yanvar şəhidlərinin adı əbədiləşdirilib, onların adına küçə və məktəblər vardır. Dövlətimiz 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə xüsusi diqqət və qayğı göstərir. Ulu Öndər Heydər Əliyevin Fərmanına əsasən "20 Yanvar şəhidi" adı təsis edilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uğurlu sosial siyasəti nəticəsində ölkədə 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələri üçün etibarlı sosial müdafiə sistemi formalaşdırılıb. Hazırda 20 Yanvar şəhidlərinin ailələrinə, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin aylıq təqaüd verilir. Bununla bərabər 20 Yanvar şəhidlərinin əmək pensiyası almaq hüququ olmayan ailə üzvlərinin hər birinə kommunal, nəqliyyat və digər xidmətlər üçün aylıq sosial müavinət, 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə əlilliyə görə aylıq sosial müavinət və ya əmək pensiyası, həmçinin onların uşaqlarına müavinət ödənilir. Şəhid ailəsi üzvlərinə pensiya təyinatı zamanı əlavə üstünlük verilməklə, onların əmək pensiyasının baza hissəsinin üzərinə əlavə də hesablanır. 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslər və şəhid ailələrinin də mənzillə, eləcə də 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərinin minik avtomobilləri ilə təminatı həyata keçirilib. 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərin və şəhid ailələrinin ölkənin ali və orta ixtisas təhsil müəssisələrində ödənişli təhsil alan övladlarının təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir.

# İndi Xankəndindən tamamilə fərqli siqnallar gəlməyə başlayıb

*Yaxud, heç bir digər ağıllı erməni statusu gorbagor olan, cəhənnəmə gedən, Azərbaycanın qanunvericiliyində fəaliyyət göstərəcəyi gününə çox az qalan bir ərazidəki mülkə pul verib almaz*




Orta hesabla, oradakı ermənilərin real sayı uzağı 60 minə qədər olub. Təbii ki, ermənilərin yalanlarının təməlində status iddiaları dayanırdı və bu iddialar darmadağın edildikdən sonra indi Xankəndindən tamamilə fərqli siqnallar gəlməyə başlayıb. Məlum olub ki, Rusiya sülhməramlılarının dəstəyi ilə geri dönmələri barədə yayılan xəbərlərə gerçək informasiyalar əlavə olunmur. Yəni faktlara əsasən, geri dönənlərin əksər çoxluğu (!) evlərini, mənzillərini, torpaqlarını satmaq üçün oraya gedirlər. Çox cüzi hissəsi isə Ermənistanda ya qohum-əqrabaları olmayanlardır, ya da oradakı ağır vəziyyətdə "qaçqın" statusunda yaşamaq istəməyənlər. Beləliklə, Qarabağa bütövlükdə 50 min erməni geri dönür və əvvəlki iddialardakı "150 min" yalanı ifşa edilir. Çünki ortadakı "100 min" erməni ümumiyyətlə yoxdur, olmayıb da!




### Qarabağlı erməniləri təhqirlərə məruz qoyanlar kimlərdir?

Biz onu da unutmamalıyıq ki, bu gün və hər zaman Ermənistan erməniləri ilə Qarabağ erməniləri arasında davamlı ədavətlər olub. Hətta müharibə zamanında da bu ədavət səngiməyib və hərbi əməliyyatlar vaxtı qaçaraq qaydada Ermənistana üz tutan qarabağlı ermənilərə əvvəl-əvvəl "humanizm" sərgilənirdisə, sondaran bu "humanizm" gerçək nifrətə çevrildi. Ermənistan erməniləri hər zaman qarabağlı ermənilərə görə öz övladlarını, ata və qardaşlarını qurban verdiklərini deyərək, daxilərindəki hiddətlərini gizlətmir, əllərinə düşən hər imkandan istifadə edərək, onları təhqirlərə məruz qoyurdular. Bu gün də belədir. Yalnız imkanlı, varlı Qarabağ erməniləri heç Ermənistana da deyil, Rusiyaya və Avropa ölkələrinə mühacirət etməyi planlaşdırırlar, mal-mülklərini satdıqdan sonra. Ancaq onların daşınmaz əmlak bazarları da artıq ölüb, sadəcə ağlayanı lazımdır. Çünki heç bir digər ağıllı erməni statusu gorbagor olan, cəhənnəmə gedən, Azərbaycanın qanunvericiliyində fəaliyyət göstərəcəyi gününə çox az qalan bir ərazidəki mülkə pul verib almaz...

### Əks halda, bu məsələnin də - Zəngəzur və s. tarixi torpaqlarımızın geriyə qaytarılması faktoru gündəmdədir

Nəticə isə təxminən bu cürdür: Prezident İlham Əliyevin də vurğuladığı kimi, dağıdılmış, viran qoyulmuş şəhər və kəndlərimizə beynəlxalq auditorlar dəvət olunur və onlar dəymiş zərəri qiymətləndirir, Azərbaycan dövləti beynəlxalq məhkəmələrdə Ermənistandan milyardlarla dollar həcmində təzminat tələb edir. Ermənistanın təzminatı ödəyib-ödəyə bilməyəcəyi, ya da necə ödəyəcəyi isə növbəti mərhələdədir. Əks halda bu məsələnin də, misal üçün - Zəngəzur və s. tarixi torpaqlarımızın geriyə qaytarılması faktoru gündəmdədir.

Lakin buna qədər Qarabağımızda başladılan bərpa-quruculuq işləri sürətləndirilir və on minlərlə qaçqın vətəndaşlarımız Xankəndi də daxil olmaqla öz doğma torpaqlarına geri dönürlər. Ermənilər isə ya Azərbaycan vətəndaşlığını qəbul edib normal insan həyatı yaşayırlar, ya da bunu istəməsələr geri dönürlər - onları gözləməyən, daim təhqirlərə məruz qalacaqları Ermənistana...

**Rövşən RƏSULOV**

# Koronavirusla bağlı nəqliyyat vasitələrində yol verilən nöqsanlar açıqlanıb

**Koronovirus infeksiyasının yayılmasının qarşısının alınması istiqamətində Azərbaycanda həyata keçirilən tədbirlərə uyğun olaraq Dövlət Avtomobil Nəqliyyatı Xidməti (DANX) tərəfindən öz tənzimləmə dairəsi çərçivəsində aprel ayından etibarən hazırkı tarixədək 165 763 monitorinq keçirilib və 13 341 nöqsan aşkar olunub. DANX-dan SİA-ya verilən məlumata görə, aşkarlanan nöqsanların aparılan monitorinqlərdəki payı təxminən 8% təşkil edib və bu nöqsanların aradan qaldırılması üçün tərəfimizdən zəruri tədbirlər görülüb.**

Aparılan monitorinqlər işəgötürənin işçilərini qoruyucu vasitələr və dezinfeksiyaedici ləvazimatlarla təmini (monitorinq sayı 39673, nöqsan sayı 1020), dayanacaqlarda və nəqliyyat vasitələrində nəqliyyatdan mümkün qədər az istifadə edib piyada gəzməyi və məsafə saxlamağı təşviq edən maarifləndirici plakatların yerləş-




dirilməsi (monitorinq sayı 18630, nöqsan sayı 1162), vətəndaşlardan tibbi maska taxmalarını tələb edən və sosial məsafənin saxlanılmasının zəruriliyini bildirən maarifləndirici məlumatlar yerləşdirilməsi (fəaliyyətinə icazə verilən 8 avtovağzal və avtostansiyada monitorinq sayı 142, nöqsan sayı 11), avtobuslarda sərnişinlərlə sürücünün fiziki təmasının istisna edilməsi üçün daşıyıcılar tərəfindən şəffaf arakəsmələrin quraşdırılması (monitorinq sayı 21176, nöqsan sayı 1177), taksilərdən istifadə edən müştərilərin yalnız arxa oturacaqlarda oturmasının təmini (monitorinq sayı 23392, nöqsan sayı 5111), taksi sürücüsü ilə arxadakı oturacaqlar arasında şəffaf, hava keçirməyən arakəsmələrin quraşdırılması (monitorinq sayı 23156, nöqsan sayı 2250) və avtobusların və taksi minik avtomobillərinin fasilələr zamanı daşıyıcılar tərəfindən dezinfeksiya edilməsi (monitorinq sayı 39594, nöqsan sayı 2610) ilə bağlı məsələləri əhatə edib.

# Anar Xəlilov: "Şəhidlərimizin qanı ilə azadlığımızı əldə etdik"

***28 aprel 1920-ci ildə Azərbaycan Demokratik Respublikasını işğal edən Sovet Rusiyası bu işğalla milli mənəviyyatımıza, xalqımıza bir çox dəhşətli zərbələr vurdu. Bu sözləri 20 yanvar faciəsinin ildönümü ilə bağlı SİA-ya verdiyi açıqlamasında Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, Sağlam İnkişaf və Maarifləndirmə İctimai Birliyinin sədri Anar Xəlilov deyib.***



İctimai Birliyin sədri qeyd edib ki, Azərbaycana qarşı ilk zərbələrdən biri onun tarixi ərazilərinin Ermənistan SSR-na verilməsi, milli düşüncəli, vətənpərvər, dövlətçilik şüuruna malik ziyalı elitasının isə məhv edilməsi oldu.

"Tarixi Azərbaycan ərazisi olan keçmiş Qarabağ xanlığının dağlıq hissəsində DQMV-nin yaradılması Azərbaycanın sinəsinə bağlanmış bomba rolunu oynadı. Aparılan anti-milli siyasətə qarşı çıxan ziyalılar isə 37-ci ilin kütləvi represiyasına məruz qaldı. Ermənistanda, öz tarixi yurdlarında yaşayan, dəfələrlə say hesabında DQMV-nin erməni əhalisini üstələyən azərbaycanlılar isə Zəngəzur, Göyçə, Vedi, İrəvan mahallarından sıxışdırılaraq çıxarıldı. Onların hüquqları tanınmadı. Nəhayət, Qərb xüsusi xidmət orqanlarının layihəsi olan Qorbaçovun Sovet rəhbərliyinə gətirilməsi ilə Azərbaycanın sinəsinə bağlanmış DQMV adlı bomba ötən əsrin 88-ci ilinin fevralında partladıldı. Moskvanın və Qorbaçovun arxasında duran Qərb dairələrindəki erməni lobbisinin tam dəstəyini alan erməni separatizmi rahatlıqla Xankəndində üsyan qaldıraraq vilayətin Ermənistana birləşdirilməsini tələb etdilər.

Mövcud konstitusiyaya və eləcə də bütün beynəlxalq normalara zidd olan bu əməllərə qarşı hərəkətə keçmək, seperatçıları həbs etmək əvəzinə Sovet rəhbərliyi SSRİ DİN-nin Daxili qoşunlarını erməniləri qorumaq və müdafiə etmək üçün DQMV-nə yeritdilər. Məqsəd və siyasət azərbaycanlıları vilayətdən çıxarmaq, ermənilərin çirkin siyasətinə dəstək verərək vilayəti Ermənistana birləşdirməyə xudmət etmək idi. Azərbaycan xalqı bu çirkin siyasəti dərhal hiss edərək elə ilk dövrlərdən müqavimət göstərməyə qalxsa da, Moskvanın təzyiqi ilə rastlaşdı. Getdikcə Moskvanın apardığı ermənipərəst siyasət xalqı daha da mübarizəyə sövq etməyə başladı. Artıq Sovet ideologiyasının aparıcı prinsiplərindən biri olan xalqlar dostluğu tezisinin elə Kommunist partiyasının rəhbərləri tərəfindən pozulduğunu görən Azərbaycan xalqının mübarizəsi həm erməni seperatizminə qarşı, həm də Sovet imperiyasına qarşı kökləndi. Milli azadlıq hərəkatı Azərbaycanda geniş vüsət almağa başladı. Azərbaycan xalqının mübarizə əzminə tarixən bələd olan Sovet rəhbərliyini genişlənən xalq hərəkatı qorxutmağa başlatdı. Xankəndində artıq iki ildir davam edən erməni özbaşınalığına qarşı ölçü götürməyən mərkəzi hakimiyyət, Bakıda Sovet rəhbərliyinin ikiüzlü siyasətinə qarşı çıxan, bu haqsızlıq qarşısında öz müstəqilliyini tələb edən dinc əhaliyə qarşı görünməmiş cinayət əməli törətdi", deyə Anar Xəlilov bir sıra tarixi məqamları xatırladıb.

Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü xüsusilə vurğulayıb ki, 20 yanvar 1990-cı il tarixində Bakıya Sovet ordusunun ən döyüş qabiliyyətli hissələri, özü də dinc əhaliyə qarşı yeridildi.

"Əli silahsız, dünyadan və Sovet rəhbərliyindən ədalət tələb edən insanlara qarşı havadan, dənizdən, qurudan zərbələr endirildi. Yüzlərlə insanlar şəhid edildi. Azərbaycan televiziyasının enerji bloku partladıldı, informasiya kanalları zəbt olunaraq bu faciənin Beynəlxalq aləmə yayılmasının qarşısı alındı. Lakim hadisədən xəbər tutan Moskvada ev dustaqlığında saxlanılan Ümummilli Lider Heydər Əliyev cəsarətli addım ataraq, Moskvada Azərbaycan nümayəndəliyinə gələrək, öz nüfuzundan istifadə edərək, Azərbaycana qarşı sovet rəhbərliyinin törətdiyi bu cinayəti Beynəlxalq aləmə çatdırdı. Sovet rəhbərliyi Azərbaycan xalqına qarşı bu cinayəti törətməklə xalqı qorxutmağa çalışsa da əksinə xalqımız daha da əzmlə öz azadlığı uğrunda mübarizəyə qalxdı. 1 il 10 aydan sonra Azərbaycan öz müstəqilliyini elan etdi. 20 yanvar şəhidlərinin qanı ilə Azadlığa gedən yol öz məqsədinə çatdı. Şəhidlərimizin ruhu azadlığımızı əldə edəndən sonra rahat olsa da, onların qatilləri olan Sovet rəhbərləri hələ də öz layiqli cəzalarını almamışlar. Dünyada ədalətdən dəm vuran demokratiya adlı qurumlar Qorbaçova Nobel mükafatı verərək, sanki onun bu cinayətindən xəbərsiz olduqlarını nümayiş etdirdilər. Bu qurumlar elə sonrakı dövrlərdə də Azərbaycan xalqının başına gətirilən müsibətlərdə kor, kar oldular. 30 ildən artıq davam edən erməni işğalına susdular. Azərbaycan xalqı isə ancaq uca Tanrıya və özünə güvəndi. Moskvada xalqın faciəsini dünyaya çatdıran Ümummilli Liderin Azərbaycan hakimiyyətinə yenidən dönüşü və onun layiqli davamçısı İlham Əliyevin apardıqları uzun illərin uğurlu siyasəti son nəticədə öz sözünü dedi. 20 yanvarda şəhidlərimizin qanı ilə Azadlığımızı əldə etdik.

1991-ci ilin 18 oktyabrında müstəqil dövlət olduq. 2020-ci ilin 27 sentyabrında torpaqlarımızı 44 günə mənfur düşməndən azad etdik. Ancaq heç bir beynəlxalq qurumdan dəstək olmadan xalqımızın birliyi ilə bu zəfərlərə nail olduq. Şəhidlərimizin qanı ilə qazanıldı bu tarixi missiya. Müstəqilliyimizə gedən yolda 20 yanvar şəhidlərinin qanı ilə qazanılan azadlığımız 44 gündə şəhidlərimizin qanları ilə ərazi bütövlüyümüzün bərpası ilə daha da gücləndi. Allah Azərbaycan uğrunda bütün dövrlərdə şəhid olmuş oğul və qızlarımıza rəhmət eləsin! Azərbaycanın müstəqilliyi daimi olsun! Şair demiş "Torpaq, uğrunda ölən varsa, Vətəndir!", deyə Anar Xəlilov bildirib.

***İnam Hacıyev***

# “Joxovurd”: “Ermənistan hüquqi müstəvidə də qaçılmaz məğlubiyyətə doğru gedir”

**“Azərbaycan Ermənistanı müharibə dövründə zərər çəkən vətəndaşlarının azadlıqlarının və hüquqlarının pozulması ilə bağlı Avropa insan haqları məhkəməsinə beynəlxalq səviyyədə şikayət edib”. SİA xəbər verir ki, bu haqda Ermənistanın “Joxovurd” qəzeti “Zəngəzur faktiki təhlükə qarşısında qalıb: məsələ Avropa insan haqları məhkəməsində baxılır”, sərlövhəli məqaləsində yazır.**

“Azərbaycan KİV-lərinin yazdıqlarına görə, şikayət yanvarın 15-də təqdim edilib və onu beynəlxalq hüquq sahəsində fəaliyyət göstərən tanınmış ekspertlər, hüquqşünaslar hazırlayıb. Şikayətdə Azərbaycan vətəndaşlarının hüquqlarının pozulması faktları yer alıb. Azərbaycan Prezidenti İlham Əliyevin adından təqdim edilən sənəddə bildirilir ki, əvvəllər Ermənistanın işğal elədiyi ərazilərdə kütləvi sayda minalar quraşdırılıb, Azərbaycanın kənd və şəhərləri yer üzündən silinib və Azərbaycan vətəndaşları öz evlərinə geri qayıtmaq imkanlarını itiriblər”, deyə ölkəmizin KİV-lərinə istinad edən “Joxovurd” hələ ötən ilin 21 noyabr tarixində Azərbaycan tərəfinin 50 milyard dollarlıq təzminat barədə fikir yürütməsi barədə narahatedici məqalə ilə çıxış etdiyini xatırladır və qeyd edir ki, bu rəqəm Ermənistan üçün katastrofikdir.




Erməni nəşri bununla yanaşı qeyd edir ki, Azərbaycanın Beynəlxalq insan hüquqları komitəsindəki nümayəndəsi tələb edilən vəsaitin yerinə Zəngəzurun verilməsi barədə fikir irəli sürdüyünü də xatırladıb.

“Bundan əlavə, dekabrın 8-də Türkiyə televiziyasında Zəngəzurun maddi vəsaitlərin yerinə qaytarpılması ilə bağlı tələb irəli sürülüb və həmin materialda Türkiyə prokurorluğu Ermənistanın Azərbaycana vurduğu zərəri 820 milyon dollar olaraq dəyərləndirib”, deyə yazan “Joxovurd” bildirir ki, iki il əvvəl Ermənistanın keçmiş baş prokuroru Gevorq Kostanyan Azərbaycan hökumətinin Avropanın müxtəlif ölkələrində hüquqşünaslar tutduğunu və Ermənistanın Azərbaycana vurduğu ziyanın ödənilməsi üçün hərəkətə keçdiyini qeyd edib və həmin vaxt bu bəyanata Ermənistanda çox az adam reaksiya göstərib.

“İndi isə 9 noyabr bəyanatının ardınca Azərbaycanın Ermənistandan kompensasiya tələb etmək üçün hüquqi əsasları yaranıb və bunu artıq rəsmi şəkildə ediblər. Maraqlıdır ki, mətbuat və müxtəlif siyasilər Azərbaycanın bu kimi mümkün addımlar atacağı barədə danışdıqları halda, Ermənistanın Avropa insan haqları məhkəməsindəki nümayəndəsi Yeqişe Kirakosyan bu iddia ilə bağlı yalnız Gevorq Kostanyanın danışdığını bildirib. Bundan əlavə, Kirakosyan 2021-ci ilin 16 yanvarında bəyan edib ki, erməni tərəfi də Avropa insan haqları məhkəməsinə ərizə verməyə hazırlaşır. Belə çıxır ki, erməni tərəfi hələ iddia ərizəsi verməyə hazırlaşdığı bir vaxtda, Azərbaycan tərəfi bir addım öndədir və artıq iddia ərizəsini təqdim edib. Və erməni tərəfinin Azərbaycanın nəyə görə bir addım irəlidə olması ilə bağlı verilən suala da cavabı yoxdur. Bu ərəfələrdə Kirakosyan gün boyunca bizim telefon zənglərimizə cavab verməyib və biz anlamırıq ki, o son günlər hansı işlə məşğuldur”, “Joxovurd” yazır.

Erməni nəşri sonda qeyd edir ki, ölkə müharibədə uduzduğu kimi, diplomatik və hüquqi müstəvidə də qaçılmaz məğlubiyyətə doğru gedir.

***Rövşən RƏSULOV***

# “Hraparak” qəzeti: “Torosyan Paşinyan üçün bir “körpüdür”

***Arsen Torosyan Eduard Ağacanyanın yerinə Hökumət Aparatının rəhbəri vəzifəsini üzərinə götürməyə razı olub və mövcud hakimiyyət orqanlarının həmfikirləri ordusunun xeyli azaldığı bu günlərdə, Ermənistanın ilk prezidenti ilə uzaqdan işbirliyini az-çox bərpa etməyə cəhd edilir və daha sonra Səhiyyə Naziri Arsen Torosyan hakimiyyətdən istefa edəcəyi təqdirdə uzlaşma və təhdidlərə işarə edilib. SİA Ermənistana məxsus armenianreport.com saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu barədə mövzunu inkişaf etdirərək “Hraparak” qəzeti yazır.***



“Dünən məlumatlarımız təsdiqləndi və Arsen Torosyan Səhiyyə Naziri vəzifəsindən istefa verdi. Torosyan dostlarını belə təəccübləndirdi və Ermənistan baş naziri Nikol Paşinyanın çoxdan xilas olmaq istədiyi Eduard Ağacanyanın yerinə Hökumət Aparatının rəhbəri vəzifəsini üzərinə götürməyə razı oldu. Mətbuat katibi Mane Qevorqyan da bu işdə müəyyən rol oynadı. Müharibədən sonrakı günlərdə Paşinyanı tənqid edən və getməsini təklif edən Torosyanın saxlanılmasına gəlincə, baş nazirin Torosyanı nəyin bahasına olursa olsun, Erməni Milli Konqresi ilə əlaqə qurmaq istədiyi söylənilir”, deyə qəzet qeyd edir.

***İnam Hacıyev***

# Bu gün əsassız ittihamlarla çıxış edənlər unutmasınlar ki...

***Məlum olduğu kimi, 44 günlük Vətən müharibəsində əldə edilmiş qələbə, torpaqlarımızın düşmən tapdağından azad olunması təkcə xaricdəki ermənipərəst dairələrin deyil, eyni zamanda, onların ölkəmizdəki əlaltılarının - radikal müxalifət təmsilçilərinin də narahatlığına səbəb olub. Vaxtilə torpaqlarımızın ermənilər tərəfindən işğal olunmasında bu və ya digər şəkildə günahkar olanlar, hakimiyyət hərislikləri ilə bu işğala özünəməxsus “töhfə” verənlər bu gün də dövlətimiz və xalqımız əleyhinə düşmən mövqe sərgiləməkdədirlər.***

Özlərini xalqa “vətənpərvər” kimi təqdim edənlər indi müxtəlif bəhanələrlə əldə olunan möhtəşəm qələbənin əhəmiyyətini azaltmağa, cəmiyyətdə zərərli müzakirələrə yol açmağa və bununla da həm öz xarici himayədarlarının sifarişlərini yerinə yetirməyə, həm də gündəmdə qalmağa cəhd göstərirlər. Bir sözlə, antimilli şura xain və satqın siması ilə düşmən dəyirmanına su tökməkdədir.

Əslində, bu gün Azərbaycan hakimiyyətinə qarşı əsassız ittihamlarla çıxış edənlər unutmamalıdırlar ki, vaxtilə məhz onların səriştəsizliyi, bacarıqsızlığı nəticəsində Azərbaycan Dağlıq Qarabağı və ətraf rayonları itirmişdi. 1992-ci il mayın 15-də AXC-Müsavat cütlüyünün qanunsuz yolla hakimiyyətə gəlməsindən iki gün sonra strateji əhəmiyyət kəsb edən Laçın rayonu Ermənistan tərəfindən işğal olundu. Hansı ki, məhz Laçının işğalından sonra Ermənistanla Dağlıq Qarabağ separatçıları arasında birbaşa kommunikasiya açıldı. 1993-cü ilin aprelində isə Kəlbəcər kimi böyük rayon işğal olundu. Bu azmış kimi həmin ilin iyun ayında ölkədə başlanmış siyasi böhran, daxili qarşıdurmalar nəticəsində əsgərlərimizin qanı-canı hesabına azad olunmuş bəzi ərazilər də düşmən tərəfindən yenidən işğal olundu. Üstəlik, bir neçə rayon da ermənilər tərəfindən qəsb edildi. Artıq bu gün həmin torpaqlar Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi və qüdrətli Azərbaycan Ordusu tərəfindən geri alındı.

Bu günlərdə Prezident İlham Əliyevin Şuşa şəhərinə səfəri zamanı 1992-ci ilin mayında o vaxtkı Azərbaycan rəhbərliyinin və hakimiyyət uğrunda mübarizə aparan AXC-Müsavat cütlüyünün xəyanəti nəticəsində ölkəmizin bu dilbər guşəsinin işğal altına düşməsi faktlarını bir daha ölkə ictimaiyyətinin diqqətinə çatdırması da həmin ünsünlərin yarıtmaz fəaliyyətinin növbəti dəfə ifşası oldu.

Göründüyü kimi, ölkə başçısının tarixi faktlara əsaslanan çıxışı özünü müxalifət adlandıran bir qrup marginal dəstəyə yaman pis təsir edib. Niyə də etməsin? Səriştəsizlikləri səbəbindən hakimiyyətləri tarixə qara ləkə kimi düşən bu adamlar və onların xəyalpərvər xələfləri tarixi həqiqətləri eşitmək istəmirlər. Çünki həqiqətlər bu düşərgənin xəyanətkar əməllərini ifşa edir. Bu mənada hər bir gənc, yetişən yeni nəsil tarixi bilməlidir, antimilli ünsürlərin xalqın başına gətirdikləri bəlalardan xəbərdar olmalıdır.

***Mənsumə Babayeva***

# Ohanyan: Şuşada itkilərimiz çox oldu

***Ermənistanın keçmiş müdafiə naziri Seyran Ohanyan “Azadlıq” radiosuna verdiyi müsahibədə Şuşa şəhərinin iki səbəbə görə itirildiyini açıqlayıb. Azvision xəbər verir ki, o, səbəblərdən biri kimi idarəetmə səviyyəsinin aşağı olmasını göstərib. İkinci səbəb kimi həmin vaxtı Şuşa istiqamətində düzgün əlaqə qurmaq üçün ilkin nəzarət nöqtəsinin olmamasını əsas gətirib.***



“Məsləhət verdim, amma qulaq asan lazım idi. Doğru taktika seçildiyi yerlərdə mühəndis quruluşları yaxşı idi. Nizam-intizamın güclü olduğu nöqtələrdə mühəndis qurğularını düzgün təşkil etmədilər. Orada çoxlu itkilərimiz oldu. Yaxşı intizam olsaydı, məğlubiyyətlərimizin demək olar ki, yarısı olmazdı”.

Ohanyan, həmçinin müharibənin ilk günlərində dayandırılması ehtimalından da söz açıb: “Sentyabrın 28-dən 29-a keçən gecə Qarabağda müdafiə ordusunun komandanlıq postunda idim. 30 sentyabrda hərbi-siyasi vəziyyəti qısa təhlil etdim və müvafiq təkliflər verdim. “Artsax” (Qarabağda olmuş qondarma rejim-red) və Ermənistan rəhbərliklərinin danışıqlar prosesini bərpa etmək və müdafiə ordusunun hərtərəfli gücləndirilməsini təmin etmək üçün qəti tədbirlər görməleri lazım olduğunu qeyd etdim. Əlbətə ki, həmin vaxtı döyüşlər dayandırılsaydı, müharibənin gedişi fərqli olardı. Məlum 5 + 2 formatı ilə bağlı danışıqlar prosesi elə qurulacaqdı ki, bizim faydalı qərarlar qəbul etmə fürsətimiz olacaqdı”.

**Qondarma rejimin Müdafiə Ordusu deyilən əldəqayırma qurum Ermənistandan olan çağırışçılarla təchiz ediləcəyi qənaətində olmasına baxmayaraq, bu cəfəngiyyatın reallıqla əlaqəsi olmadığı hər məqamda öz təsdiqini tapır. İndi erməni cəmiyyəti bu məsələni qeyri-müəyyən, yaxud müəmmalı adlandırır, amma, ilk növbədə nəzərə alsaq ki, nə Ermənistanda yetərincə hərbi personal qalıb, nə də çağırışçılar Qarabağa getmək fikrində deyil, deməli, ermənilər bu məsələni sonadək müəmma olaraq qəbul etməyə, təskinlik tapmağa çalışacaqlar və bundan başqa yollarıda yoxdur.**



# Müəmmalar və havada qalan Ermənistan

TƏHLİL

Ermənistana məxsus mətbuat səhifələri, eləcə də sosial şəbəkələrin erməni seqmenti yazır ki, çağırışçılarla təmin olunma məsələsi sual olaraq havada qalıb. Təbii ki, qalmalıdır və necə sual olaraq qalmaya bilər axı? Hansı səlahiyyət sahibidir Ermənistan hakimiyyəti və kim Nikol Paşinyanın kitabını oxuyur, kim onun rəhbərlik etdiyi hakimiyyətin fikirlərinə, qərarlarına məhəl qoyur? Məhz bu səbəbdən də bu günə qədər İrəvandakı hərbi-siyasi rəhbərlik buna aydın cavab vermir və heç vermək imkanına da sahib deyil. Səbəb budur ki, hazırkı Ermənistan hökuməti, əslində, artıq heç bir məsələnin, hansısa problemin həllində iştirak etmir və boynunu burub hansısa məsələ ilə bağlı Moskvanın qərarlarını gözləyir. Heç şübhəsiz ki, Kreml də hansı havanı çalsa, ona oynanılır və rəsmi İrəvanın buna qarşı çıxacaq həddi belə yoxdur.

Böyük qardaş saydıqları ruslaların, Rusiya hökumətinin bir qədər əvvəl əleyhinə mövqe sərgiləyən ermənilər indi onların əlinə baxmaq məcburiyyətindədirlər. Çünki, Ermənistanın bir dövlət olaraq uçurumun kənarında olduğunu son vətəndaşına qədər hər bir erməni başa düşür və tarix boyu olduğu kimi, dizləri yerə dəyən ermənilərin ayağa qalxmasının bilavasitə ruslardan, Rusiya hökumətindən asılı olmasına alternativ fikir belə cəfəngiyyat olaraq qəbul edilir.

Nəzərə alsaq ki, ermənilərin probleminin durmadan artması bu ölkə hakimiyyətinin gözünün belə açılmasına imkan vermir. Onsuz da yığılıb qalan sosial problemlər, yoxsulluq problemi, səfalət yetərincədir bu ölkədə və kimliyindən asılı olmayaraq, Ermənistanı bu vəziyyətdən dərhal çıxaracaq sehirli qüvvə yoxdur. Nə Paşinyanın sehrli çubuğu yoxdur, nə də ona müxalifətdə olan qüvvələrin baş nazir postuna irəli sürdüyü Vazgen Manukyanın. İşğalçı ölkənin vəziyyətdən çıxması üçün iqtisadi islahatlar istiqamətində köklü dəyişikliklər və ən əsası da zaman tələb olunur. Çünki, qeyd olunduğu kimi ermənilərin yaşadığı problemlərdən dərhal azad olunması bir anın işi deyil.

Bu qədər açınacaqlı durumda olan bir ölkənin qondarma rejim üçün hərbi qüvvələr, barədə düşünməsi, iddili olması özü də bir problemdir bu cəmiyyət üçün. Bu barədə ziddiyyətlərin olması isə öz növbəsində yeni problemlər deməkdir. Nəzərə alsaq ki, ermənilərin hətta öz aralarında belə ziddiyyətləri yetərincədir və üstəlik bu ziddiyyətlər də əlavə olunursa, deməli, problem üstünə problem əlavə olunur.

İzah edilməsi, daha doğrusu, çıxış yolu tələb olunan bir çıxılmaz vəziyyət yaranıb Ermənistanda. Bir qrup iddia edir ki, Moskva razılaşarsa, qısa müddətdə qondarma Qarabağ ordusunu sıfırdan qurmalıdırlar. Hətta qeyd olunur ki, ən azından bir qrup yığılmalı, təchiz edilməlidir və guya bütün müdafiə sistemi yenidən nəzərdən keçirilməlidir. Dərhal suallar yaranır və bu sualların cavablandırılmasına da ehtiyac duyulur. Əvvəla, hansı vəsaitlərlə, hansı hərbi texnika, hansı silahsursatla və ən azından hansı personalla bütün bunlar qurulur? Çünki, bu işlər böyük xərclər və ən əsası hərbi və siyasi risklərlə əlaqəlidir. Amma, Ermənistan bir dövlət olaraq sürünür və tamamilə tükənmiş durumdadır və bu durumda hansı imkanlara malik ola bilər? Bir sözlə, bu ölkənin imkanları qeyd olunan məqamlarla əlaqədar hərhansı bir addım atmağa belə imkan vermir.

Digər bir məqam da ondan ibarətdir ki, Ermənistanın hazırkı hərbi-siyasi rəhbərliyinin Ermənistandan çağırılanların Qarabağda xidmət etməsini istəməyən cəmiyyətin əhəmiyyətli hissəsinin güclü təzyiqinə məruz qaldığı da heç kimə sirr deyil. Artıq erməni cəmiyyəti etiraz aksiyaları keçirir və açıq-aşkar bəyan edir ki, övladlarını Dağlıq Qarabağa nəinki döyüşməyə, heç hərbi xidmətə belə cəlb olunmasına etiraz edir və razı deyillər. Erməni çağırışçıların valideyinləri çəkinmədən bəyan edirlər ki, öz övladlarını Qarabağa xidmətə buraxmayacaqlar. Yaxşı, belə olan halda, Ermənistan qondarma rejimin hərbi potensialını hansı şəkildə təmin edə bilər? Hər halda, ən azından əsgərlə təmin etmək kimi bir iş qarşıda durur ki, buna belə Ermənistanın imkanı yoxdur.

Üstəlik, 9 Noyabr razılaşmasının nəticələrinə görə, Ermənistan-Azərbaycan sərhədinin uzunluğu yüzlərlə kilometr artıb və Ermənistanın Qarabağdakı qoşunlarının mövcudluğu, yaxud əlavə insan resursları ilə, yaxud hərbi texnika ilə "təchiz edilməsi" ermənilərin öz aləmində belə elə problem olaraq qalır. Vəziyyət, gördüyü kimi, kifayət qədər qarışıqdır və göz önündə olan qeyri-müəyyənliyə görə, bölgədəki yeni reallıqlar nəticəsində yaranan bir çox problemin həll olunması özü reallıqdan uzaqdır. İroniya bundan ibarətdir ki, rəsmi İrəvan faydaları olub-olmamasından asılı olmayaraq bu məsələlərdə səssizcə başqalarının qərarlarını vermək məcburiyyətindədir və subyektivliyi əhəmiyyətli dərəcədə itirilmişdir. Belə olan halda isə hansısa cəfəng fikirlər, iddialar, planlar haqqında danışılması çox gülünc səslənir.

Bu gedişlə, bu iddialarla Ermənistan üçün perspektivdə yaxşı heç nə vəd oluna bilməz. Ermənistan öz işğalçılıq siyasəti, ələlxüsus son illərdə müharibə, quldurluq və terrordan başqa bir şey etmədiyi göz önündədir və bu da həmin ölkənin digər ölkələrlə qonşuluqda yaşamasını belə çətin durumda qoyur. Heç bir qonşu dövlətlə, bir növ yola gəlməyən Ermənistan sanki havada qalıb və boşluq içərisindədir. Yəni, işğalçı ölkə tamamilə asılı vəziyyətdədir, özü də boşluqdan asılıb. Bu boşluğun isə heç şübhəsiz ki, bəzi qüvvələrin beyinlərinə təsir etdiyi qənaətinə gəlməkdə hər kəs haqlıdır.

***İnam Hacıyev***

---

# Rusiya eksperti: "COVID nüvə müharibəsindən də betərdir"

***2020-ci ilin əsas hücumu COVID-dir və müşayiət olunan bütün çətinliklər bu il də bizimlə qalır. Bu sahədə proseslər necə inkişaf edəcək? Hansı peyvənd daha təsirli olur? Vaksin müharibəsi davam edəcəkmi? Sərhədlər açılacaq, yoxsa ölkələr yüksək təhlükəsizlik qalalarına çevriləcək? Hərbi ekspert, "Milli Müdafiə" jurnalının baş redaktoru İqor Korotçenko "Pravda.Ru" nun baş redaktoru İnna Novikovaya müsahubəsində 2021-ci ildə perspektivlər və risklər barədə danışıb.***

***- İqor, 2021-ci ilin qlobal problemləri, riskləri və imkanları nələrdir? Köhnə ili yola salmaq üçün hər zaman bütün pis şeylərin orada qalmasını və bütün yaxşı şeylərin yeni ildə gəlməsini diləyirik, inkişaf və sevinc gözləyirik. Ancaq təəssüf ki, koronavirusun heç bir yerə getməyəcəyi aydındır, o, bizimlə qalır. Sizcə perspektivlərimiz nədir?***

- İnanıram ki, əsas problem həqiqətən COVİD pandemiyasıdır, çünki qlobal xarakter daşıyır və hər birimizə birbaşa təsir edir. Əlbətdə ki, bu qlobal və hər yerə yayılan problem 2021-ci ildə də qalır. COVID onsuz da realdır, buna görə mümkün nüvə müharibəsindən də betərdir. Nüvə müharibəsi riskini kimsə həqiqi hiss edir, kimsə yox, kimsə NATO-nu təcavüzkar hesab edir, kimsə etmir, amma koronavirus sizə gələndə onunla tək qalırsınız və tamamilə ondan asılısınız.

Bundan sonra nə olacaq? Əlbətdə ki, səhiyyə sistemi işləyir, vaksinləmə artıq başlayıb. Allah uğurlu olmağı nəsib etsin və bütün peyvəndlər dedikləri kimi təsirli olsun. Bir çox insan vəziyyətin yaxşılaşmasını peyvəndlə əlaqələndirir. Ən azı Moskvada hər hansı bir klinikaya yazılmaq, ilk peyvəndi almaq və müəyyən müddətdən sonra 2-cini almaq olar. Bir-iki həftədən sonra bədənin təsirli antikorlar meydana gətirməsi üçün həmin şəxs koronavirus virusuna yoluxma riskindən sığortalanmalıdır. Hamımız bu vəziyyətə giririk. Kimsə peyvənd olunur, kimsə gözləyir, kimsə başqa bir şeyə ümid edir. Ancaq əminəm ki, sağlamlığımız, təhlükəsizliyimiz və iqtisadiyyatımız üçün əsas təhlükə, əlbəttə ki, COVID-dir.

***- COVID həqiqətən bütün həyatımızı altüst etdi. Keçən yazdan bəri yeni bir geri sayma başladı. İndi yalnız peyvəndləmə deyil, həm də vaksin müharibəsi başladı. Davamlı olaraq adamların Amerikanın "Pfazer" peyvəndindən öldüyü yazılır. Qərbdə bizim peyvəndimizi də tənqid edirlər. Qəti şəkildə ən etibarlı və mütəxəssislərimizin dediyi kimi çox təsirli olsa da. Ancaq indi Avropaya yalnız Avropa lisenziyasına sahib bir peyvənd sertifikatı ilə səyahət etmək mümkün olacağı barədə məlumatlar var idi. Onların bizim peyvəndimizə sertifikat verməyəcəyi aydındır. Buna görə də yeni peyvənd-koronavirus müharibəsi və yeni problemlər başlayır.***



- Mən də bu məlumatları oxudum. Əlbətdə ki, heyrətamizdir. Məncə, məsələn, İspaniya, İtaliya və Finlandiya rus turistlər olmadan edəcəklər. Əlbətdə, ölkəmizdə elit qruplar Qərb peyvəndi vurdura bilər. Vətəndaşların böyük əksəriyyəti üçün "Sputnik V" vurulacaq. Daha 2 Rusiya peyvəndi də klinik sınaqlardan sonra çıxmalıdır. Əlbətdə ki, bu məlumatlar son dərəcə xoşagəlməzdir, amma yenə də inanıram ki, Şengen vizasının etibarlı olmayacağı və ya Avropa peyvənd sertifikatı olmadığı təqdirdə etibarlı olmayacağı qeyri-realdır.

Müəyyən şərtlərdə, ən azı COVID-in 3-cü və ya 4-cü dalğası dövründə Avropanın, həqiqətən, Rusiya vətəndaşlarının hərəkət hüququ, Şengen ərazisinə girmə məsələlərində ayrı-seçkiliyə məruz qalması ilə əlaqəli bir sıra məhdudiyyətlərə gedəcəyi istisna edilə bilməz. Yalnız ona görə ki, onlar Qərb deyil, Rusiya peyvəndi vurdurublar. Bu tam cəfəngiyat olardı. Digər tərəfdən, dünyanın gözlərimiz qarşısında necə dəyişdiyini nəzərə alsaq, prinsipcə belə bir ehtimal istisna edilə bilməz. Başqa bir şey budur ki, bu, Avropa turizm iqtisadiyyatına, əyləncə sənayesinə və otel sahiblərinə böyük bir zərbə vuracaqdır. Yaxın bir və ya iki ildə, pandemiya yatırılana qədər COVID məhdudiyyətlərinin təkcə Rusiya deyil, bir çox digər ölkələrin vətəndaşlarını da təsir edəcəyi istisna edilmir. Hər halda, şəxsən mən peyvəndimizin yaxşı olduğuna inanıram, özüm COVID-ə qarşı Rusiyanın "Sputnik V" ilə peyvəndini aldım, bir neçə həftə sonra 2-ci bir dozasını qəbul edəcəm. Bu vəziyyətdə Rusiyanın bu cür peyvəndlərin istehsalında lider ölkələr arasında olduğunu gözləyirəm.

Peyvənddən yan təsirlərim yox idi, yalnız bir neçə gün tənbəllik xaricində. Düzdür, bu, Yeni il tətilində baş verdi, heç nə etmək istəmədiyim zaman uzanıb televizora baxmaq, yemək üçün mətbəxə getmək və yenidən televizora baxmağa getmək istədim.

***Tərcümə: Elçin***

# Unudulmuş və itirilmiş sərvət: Tütünçülük

**Ekoloq: "Ona görə də, ekoloji sağlamlaşdırma ilə bağlı komleks proqram həyata keçirilməlidir"**

İqtisadiyyatın diversifikasiyası məsələsində əksər ölkələr ən potensiallı sektorlara üstünlük verirlər. Klaster yanaşma zamanı optimal sahənin seçilməsi üçün bir neçə şərt əsas götürülür- xammalı yetişdirmək üçün şərait, emal sənayesi üçün texnologiya və kadr bazası, daxili və xarici bazarın tapılması, rəqabətədavamlı və optimal qiymətə məhsul istehsalının təşkilinin mümkünlüyü və s. Azərbaycanda belə sahələrdən biri də tütünçülük və siqaret sənayesidir. Bu sektorda həm böyük ənənə və təcrübə, həm keçmiş strukturdan qalma mütəxəssis bazası, emal fabrikləri, ucuz və yerli xammal əldə etmək və nəhayət daxili və xarici bazara çıxış imkanı var. Bu yazıda tütünçülüyün potensial və perspektivlərini araşdırmağa çalışacağıq.

### Qarabağda tütünçülüyün inkişafına çalışılacaq

Xəbər verdiyimiz kimi, bir neçə gün əvvəl Kənd Təsərrüfatı Nazirliyinin təşkilatçılığı ilə "Azərbaycan Respublikasında tütünçülüyün inkişafı ilə bağlı 2020-ci ilin yekunları və 2021-ci ildə qarşıda duran vəzifələr" mövzusunda müşavirə keçirilib. Bu sahəyə bağlı olan dövlət orqanları və şirkətlərin nümayəndələrinin iştirak etdiyi müşavirədə qeyd olunub ki, Azərbaycan Prezidenti tərəfindən aqrar sahənin prioritet istiqamətlərdən biri kimi elan edilən tütünçülüyün inkişafı üçün dövlət tərəfindən sistemli dəstək tədbirləri həyata keçirilir. Həmçinin, ölkə Prezidenti tərəfindən verilən tapşırığa uyğun olaraq işğaldan azad olunmuş, tütünçülük ənənəsinin mövcud olduğu rayonlarda bu sahənin inkişafı ilə bağlı müzakirələr aparılıb.

Müşavirədə "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"nda qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi istiqamətində görülən işlər və əldə edilən nəticələr müzakirə olunub. Bildirilib ki, ölkədə tütünçülüyün inkişafının dövlət tərəfindən dəstəklənməsi nəticəsində tütünün əkin sahələri və istehsalı artıb.

Tədbirdə fermerlər, ilkin emal müəssisələri və istehsalçı şirkətlər arasında dəyər zəncirinin düzgün qurulmasının vacib olduğu diqqətə çatdırılıb. Keyfiyyətli tütün istehsalı üçün aqrotexniki tədbirlərin vaxtında və düzgün yerinə yetirilməsi, torpaq sahələrinin aqrokimyəvi analizinin aparılması, mineral gübrələrdən düzgün istifadə olunması, tütün yarpaqlarının vaxtından əvvəl dərilməsinə yol verilməməsi, zərərvericilərə qarşı mübarizə tədbirlərinin vaxtında görülməsinin vacib olduğu vurğulanıb.

Müşavirədə bu il tütün istehsalına hazırlıq və qarşıda duran vəzifələr, tütünçülüyün inkişafı, hədəflər və perspektivlər müzakirə edilib. Şitil, mineral gübrələr, toxum və texnika ilə təminat, suvarma məsələləri, subsidiyaların verilməsi ətrafında fikir mübadiləsi aparılıb, səsləndirilən təkliflər qeydiyyata alınıb. Müzakirələrin sonunda qaldırılan məsələlərin operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

### Tütün istehsalı 20 dəfə azalıb, siqaret idxalı 20 dəfə artıb

Dünyada gün ərzində satış dəyəri təxminən 4 milyard dollar olan tütün ticarətindən illik qazanc 1 trilyona çatıb. Tütün dünya üzrə istifadə olunan kənd təsərrüfatı təyinatlı torpaq sahələrinin 1 faizini təşkil etsə də, ən gəlirli sahələr arasında yer alır.

Sovet dövründə respublikamızda tütünçülük güclü inkişaf edib, bu sahədən yaxşı gəlir əldə edilib. 1970-ci illərdə Azərbaycan Dövlət Plan Komitəsində aparılan araşdırma nəticəsində məlum olmuşdu ki, hazır məhsulun dəyəri baxımından, Azərbaycanın aqrar sektorunda ən rentabelli sahə tütünçülükdür. Hesab olunurdu ki, həmin dövrdəki mövcud 25 min ton istehsalı yaxın 20 ildə azı 100 min tona çatdırmaq üçün potensial var. 1980-ci ildə isə tütün istehsalı 60 min tona çatdırılmışdı.

Tütün iqtisadi əhəmiyyətinə görə Azərbaycanda pambıqçılıqdan sonra 2-ci texniki bitki sayılırdı. Lakin Sovet İttifaqının dağılmasından sonra pambıqçılıq, çayçılıq, üzümçülük, ipəkçilik kimi yüksək gəlir gətirən sahələrlə yanaşı tütünçülükdə də tənəzzül başladı. Son 30 ildə tütün istehsalı 55 min ton azalaraq illik 3 min tona düşdü.

90-cı illərdə Dünya Bankı ilə birlikdə aqrar sektorla bağlı birgə layihələrin işlənməsinə, treninqlər aparılmasına, kreditlər verilməsinə başlandı. Bu zaman tütünçülük sektoru arxa plana atıldı. Dünya Bankının ekspertləri səbəb kimi tütünün sağlamlığa zərərini göstərir və bunu siqaretə qarşı mübarizədə bir addım kimi qələmə verirdilər. Ona görə də, tütünçülüyə yardımlar, kreditlər ayrılmadı və bu sahədə tənəzzül başladı. Əvəzində ABŞ-da tütün istehsalı və ixracı xeyli artdı. Təbii ki bu sahədən götürülən gəlirlər də. Tütün artıq qlobal monoloyiya sahəsinə çevrilmişdi.

### Tütün istehsalını 30 min tona çatdırmaq üçün real imkan var

Hazırda Azərbaycanda az həcmdə Şəki-Zaqatala zonasında "Samsun", "Trabzon" və "İtiyarpaq" kimi qiymətli tütün növləri əkilir. Lakin yerli siqaret fabrikləri naməlum səbəbdən amerikan tütününün idxalına üstünlük verərək yerli məhsulu qəbul etmədiklərindən bu qiymətli təbii sortlar ucuz qiymətə qonşu Gürcüstana satılır.

Bunun nəticəsində ölkəmizdə yerli imkanlar ola-ola xeyli valyuta xaricə axır. Dövlət Gömrük Komitəsinin məlumatlarına görə, ildə 250 milyon dollarlıq tütün və tütün məmulatı idxal olunur. Təkcə bu rəqəm yerli tütünçülüyün tənəzzülü ilə hər il nə qədər böyük gəlirdən məhrum olduğumuzu anlamaq üçün kifayət edir. Bu fakt tütünçülük kimi gəlirli bir sektorun mümkün qədər tez müddətdə bərpasının vacibliyini göstərmək üçün kifayət edir.

Ekspertlər hesab edir ki, əgər bu sahəyə yetərli diqqət ayrılsa, yaxın perspektivdə hazırki istehsalı azı 10 dəfə artıraraq 30-35 min tona çatdırmaq üçün real imkanlar vardır. İlk növbədə daxili bazarı tam təmin etmək, sonrakı mərhələdə ixrac etmək olar.

### Yerli təbii tütün alınmır, GMO Amerika tütünü idxal olunur



ABŞ kimi ölkədə siqaretə qarşı aparılan mübarizəyə baxmayaraq tütün istehsalının nəinki azalmadığını, hətta artdığını nəzərə alsaq, Dünya Bankının yuxarıda qeyd etdiyimiz ikili yanaşması şübhəli görünür. Bir çox ekspertlər ABŞ-ın tütündən yüz milyardlarla gəlir əldə etdiyini nəzərə alıb bu sahədə qlobal monopoliya yaratmaq cəhdini pisləyirlər. Bəs Azərbaycanda Dünya Bankının təşviqi və məsləhəti ilə bu sektorun tənəzzülə uğradılmasını necə başa düşmək olar?

Aydındır ki, burda belə gəlirli sahədə kiçik və böyüklüyündən asılı olmayaraq ABŞ-ın rəqiblərini sıradan çıxarmaq prosesi əsas rol oynayıb. Tütün isə çox böyük biznesdir. Ölkədə əkilən tütünün yerli siqaret fabrikləri tərəfindən alınmaması da yuxarıda qeyd etdiyimiz şübhələri gücləndirən faktorlardandır. Çünki, Azərbaycan siqaret istehsalçıları bütün xammalı xaricdən idxal edirlər. Bizim tütünün isə yerli fabriklərin almaması, əvəzində bu məhsulun Gürcüstan tərəfindən alınması maraqlı məqamdır.

Lakin qeyd etməliyəm ki burada digər səbəblərin də müəyyən qədər rolu var. ABŞ-da tütünün məhsuldarlığı yüksəkdir, çünki genetik modifikasiyaya məruz qalıb. Buna görə də, bu gün dünya bazarında onların təklif etdiyi tütün ucuz olduğundan digər ölkələrin məhsullarını sıxışdırır. Lakin Azərbaycanda tütün istehsal etmək ABŞ-dan idxal etməkdən xeyli ucuz başa gəlir.

### Tütünçülük qeyri-neft sektorunda ən perspektivli sahələrdəndir

Azərbaycanda tütünçülüyün və siqaret sənayesinin inkişafı üçün lazım olan bütün şərtlər var. Bu sektorda həm böyük ənənə və təcrübə, həm keçmiş strukturdan qalma mütəxəssis bazası, emal fabrikləri, ucuz və yerli xammal əldə etmək və nəhayət daxili və xarici bazara çıxış imkanı var.

İndiyədək tütünçülüyün inkişafı üçün bəzi addımlar atılıb. Bu sektora edilən ən böyük dövlət yardımı Azərbaycan Prezidentinin 27 noyabr 2001-ci il tarixdə təsdiq etdiyi "Kənd təsərrüfatı məhsulları istehsalçılarına müddətli vergi güzəştlərinin verilməsi haqqında" Qanuna əsasən 3 il müddətinə (2001-2003-ci illərdə) vergi ödəməkdən azad edilməsi olub.

Nazirlər Kabineti 22 noyabr 2002-ci il tarixli qərarla "Qiymətli və keyfiyyətli tütün istehsalı üzrə Dövlət Proqramı"nı, "Tütün istehsalçılarına dövlət himayəsinin, habelə qiymətli və keyfiyyətli tütün istehsalının stimullaşdırılmasının digər forma və şərtləri haqqında Əsasnamə"ni və "Tütünün və tütün məmulatının keyfiyyətinə və dövriyyəsinə dövlət nəzarətinin həyata keçirilməsi Qaydaları"nı təsdiq edib.

Bu sənədlərə əsasən hökumət tütün istehsalına dəstək verilməsini və bu sahəyə ciddi nəzarət edilməsini nəzərdə tutur. Lakin 20 ilə yaxın müddət keçməsinə baxmayaraq bu sahədə ciddi irəliləyişlər müşahidə olunmayıb. Düzdür, Sumqayıtda yeni tütün emalı fabriki açılıb və orada xeyli növdə siqaretlər istehsal olunur, lakin bu ölkənin tələbatının çox az hissəsini ödəyə bilir və xaricdən tütün gətirməyə üstünlük verir.

Tütünçülük post-neft dövründə ölkə iqtisadiyyatının inkişafını təmin edə biləcək sahələrdən biridir. Ən azı ilk dövrlərdə daxili tələbatı yerli məhsul hesabına ödəməklə idxaldan asılılığı ləğv edə bilərik, daha sonra isə ixracdan gəlir əldə edə bilərik. Şübhə yoxdur ki tezliklə Azərbaycan iqtisadiyyatında tütün sektorunun çəkisi ciddi ölçüdə artacaq, çünki azad edilmiş ərazilərimizdə tütün əkini üçün xeyli boş torpaqlar və münbit şərait var. Demək, bu istiqamətdə işlər aparılsa, ölkəmiz bu sahədən böyük gəlirlər əldə edəcək, tütünçülüyün inkişafı yeni sənaye müəssisələrinin və on minlərlə yeni yerinin yaranmasına səbəb olacaq.

*Elçin Bayramlı*

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi**

*Yazı Azərbaycan Respublikası Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

20 yanvar

QARABAĞ AZƏRBAYCANDIR!

# Məhəmməd Salah ilin ən yaxşı ərəb futbolçusu seçilib



"Liverpul" futbol klubunun yarımmüdafiəçisi Məhəmməd Salah "goal.com" internet saytının versiyasına görə, 2020-ci ilin ən yaxşı ərəb oyunçusu seçilib. Belə ki, misirli futbolçunun ardıcıl dördüncü il bu titulu qazanması diqqət çəkir. İngiltərə Premyer Liqasının sonuncu mövsümdə Salah "Liverpul"da 17 matç keçirib, bu oyunlarda 13 qol vurub, 3 məhsuldar ötürmə edib.

# "Böyük dəbilqə" turnirində Azərbaycanı 16 cüdoçu təmsil edəcək



Fevralın 18-də Təl-Əvivdə cüdo üzrə "Böyük dəbilqə" turniri start götürəcək. AZƏRTAC xəbər verir ki, yarışda ölkəmizi 16 cüdoçu təmsil edəcək. Belə ki, kişilər arasında Kəramət Hüseynov, Davud Məmmədsoy (60 kq), Orxan Səfərov, Nicat Şıxəlizadə (66 kq), Rüstəm Orucov, Telman Vəliyev (73 kq), Zelim Tckayev, Hidayət Heydərov (81 kq), Məmmədəli Mehdiyev (90 kq), Elmar Qasımov, Zelim Kotsoyev (100 kq) və Uşangi Kokauri (100 kiloqramdan yuxarı) mübarizə aparacaqlar. Qadınların yarışında isə Aişə Qurbanlı, Leyla Əliyeva (48 kq), Gültac Məmmədəliyeva (52 kq), İrina Kindzerska (78 kiloqramdan yuxarı) güclərini sınayacaqlar. Fevralın 20-dək davam edəcək yarışda indiyədək 26 ölkədən 125 cüdoçu iştirakını təsdiqləyib.

# İsveçrədə virusu məhv edən maskalar hazırlanıb

Sürix Tətbiqi Elmlər Ali Məktəbinin tədqiqatçıları İsveçrənin "Osmotex" şirkəti ilə birlikdə virusları məhv edə bilən və təkrar istifadəyə yararlı maska hazırlayıblar.

AZƏRTAC xəbər verir ki, tədqiqatçılar bu maskaları koronavirusa qarşı da uğurla sınaqdan keçiriblər. Alimlər maskanın funksiyasını izah edərkən bildiriblər ki, maska quruluşuna görə sendviç ilə müqayisə edilə bilər. Xüsusi tekstildən hazırlanmış maskanın içərisində izolyasiyalı membran təbəqəsi mövcuddur. Həmin membran təbəqəyə kiçik batareyadan aşağı voltlu elekrik gərginliyi ötürülür. Bu zaman meydana gələn reaktiv oksigen molekulları viruslarla təmasa girir və bir neçə dəqiqə içərisində virusları zərərsizləşdirir. Həmçinin bildirilib ki, maska virusların elektro-kimyəvi yolla sıradan çıxarılması ilə yanaşı, filtr funksiyası və virus hüceyrələrini passiv şəkildə zərərsizləşdirilməsinə xidmət edən ayrıca təbəqə ilə təmin olunub.



"MS2" bakteriofaqı adlanan viruslarla aparılan testlər zamanı alimlər elektro-kimyəvi tekstillərin 99 faizdən yuxarı olan antiviral təsirini müəyyən ediblər. Ona görə də bu maskanın SARS-CoV-2 virusuna qarşı tətbiqi tövsiyə olunub və yaz aylarında maska 25 İsveçrə frankı satışa çıxarılacaq.

İndiyədək antiviral tekstil üçün sertifikatlaşma həyata keçirilmədiyinə görə alimlər bu material üçün standartlaşdırılmış patent sistemi üzərində iş aparırlar. Əgər bu materialın səmərəliliyi özünü doğruldarsa, gələcəkdə bu texnologiyanın ictimai nəqliyyatda oturacaqlar və qapı dəstəkləri üçün örtüklərin hazırlanmasında, eləcə də viruslarla təmasın məhdudlaşdırılmasının tələb olunduğu digər sahələrdə tətbiqi mümkün ola bilər.

# İmmunitetin möhkəmləndirilməsi üçün su qəbul edilməsi mühüm şərtdir



Təkcə yeni növ koronavirus (COVID-19) infeksiyasına qarşı deyil, digər infeksion xəstəliklərə qarşı mübarizədə immunitet sisteminin güclü olması çox əhəmiyyətli rol oynayır. İmmunitet sistemi fərdi xarakter daşısa da, onun gücləndirilməsi mümkündür. Bu sahədə mövsümü meyvələrlə qidalanmaq və gün ərzində çoxlu maye qəbul etmək əhəmiyyətli rol oynayır.

Həkim-terapevt Sübhan Hacıyev su qəbulu qaydaları barədə AZƏRTAC-a məlumat verərək deyib: "Hər kəs öz bədən çəkisini 0,5-ə vurmaqla alınan rəqəmin onun mayeyə olan tələbatını öyrənə bilər. Məsələn, çəkisi 80 kiloqram olan insan gün ərzində 4 litr maye qəbul etməlidir. Yaxşı olar ki, onun 2 litri təbii su, qalanı isə qəbul edilən duru yeməklər, içilən çay və mayelərdən ibarət olsun. Ən azı mayenin 50 faizinin təbii su olması mütləq şərtdir".

"Lakin həddindən çox ifrata da varmaq olmaz, çünki su intoksikasiyası deyilən bir anlayış da var. Suyu qədərindən çox içmək ona qarşı ikrah hissi, ürəkbulanma yaradır və o yerə gəlib çıxır ki, su qəbul edilməsi tamamilə dayandırılır. Suyun yaratdığı köp, mədə-bağırsaq traktının pozulması, ishal və s. hallar olur. Ona görə də bunları nəzərə almaq lazımdır", - deyə həkim-terapevt əlavə edib.

# Binəqədidə cibgirlik edən şəxs tutulub



Binəqədi rayonunda oğurluq etməkdə şübhəli bilinən şəxs tutulub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 15-də paytaxt sakini İ.Süleymanlının cibindən pul və mobil telefonunu oğurlamaqda şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş F.Səfərov Binəqədi Rayon Polis İdarəsinin 5-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb.

Faktla bağlı rayon polis idarəsi tərəfindən təhqiqat aparılır.

# "Çelsi" ötən il transferlərə ən çox pul xərcləyən klubdur

FIFA 2020-ci ildə futbol klublarının transfer fəaliyyəti ilə bağlı hesabatı təqdim edib. Ali futbol qurumunun rəsmi saytında yer alan məlumatda deyilir ki, ötən il Avropada transferlərə ən çox pul xərcləyən klub "Çelsi" olub. Bu göstəricidə ikinci "Mançester Yunayted"dir. İlk üçlüyü "Mançester Siti" qapayır. Dördüncü və beşinci pillələrdə müvafiq olaraq "Barselona" və "Yuventus" klubları qərarlaşıblar.



Qeyd edək ki, "Çelsi" klubu ötən ildə "Bayer Leverkuzen"dən Kay Havertzi (80 milyon), "Leyptsiq"dən Timo Verneri (53 milyon), "Lester Siti"dən Ben Çilueli (50 milyon), "Ayaks"dan Hakim Ziyeçi (40 milyon) və "Renn"dən Eduard Mendini (24 milyon) transfer edib.

# Məşhur aktrisa iflic oldu, serialdan ayrıldı

Türkiyənin ATV kanalında yayımlanan reytinqli "Eşkıya dünyaya hükümdar olmaz"da baş obraz Hızırın anası Hayriyə Çakırbeylini canlandıran aktrisa Sabina Toziya serialdan gedib. Buna səbəb aktrisanın Makedoniyadan qayıdarkən anidən vəziyyətinin pisləşməsi və xəstəxanaya yerləşdirilməsidir. Bildirilib ki, beynində şiş tapılan Toziya Makedoniyanın səhiyyə naziri Venko Filipce tərəfindən əməliyyat olunub. 10 saat davam edən əməliyyatdan sonra 71 yaşlı aktrisanın sağ tərəfi iflic olub. Onun vəziyyətinin nə vaxt yaxşılaşacağı barədə dəqiq məlumat verilməyib. Buna görə də, serialın ssenarisində dəyişikliklər edilib. Belə ki, aktrisa üçün cənazə səhnəsi yazılaraq ekranlaşdırılıb./qafqazinfo



**Baş redaktor:**
**Bəhruz Quliyev**
**Baş redaktorun müavinləri:**
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**